QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 161 (5633) 29 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışı olub




Səh 2


Bakının siması daha da gözəlləşir



4

Almaniyanın nüfuzlu KİV-ləri Federal Kansler Angela Merkelin Azərbaycana səfərinə geniş yer ayırıblar



5

Azərbaycanın birinci xanımı: xeyirxahlıqla dövlətçilik ruhu birləşəndə



7

Binəli Yıldırım Azərbaycana gələcək



9

Bəhruz Quliyev: "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm layihələr həyata keçirir"



8

Nikol Paşinyan hökuməti dalana sıxışdırılıb



13

10

"Beşinci kolon" - verilən proqnozlar öz nəticəsini tapacaq



11

Gürcüstan öz ərazisi ilə Rusiyadan Ermənistana buğda tədarükünü məhdudlaşdırır



16

UEFA ötən mövsümün ən yaxşı qolunu açıqlayıb



# Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışı olub

***Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdilər.***




Mərkəzin direktoru Günel Rzayeva burada yaradılan şərait barədə məlumat verdi. Paytaxtın Üzeyir Hacıbəyli və Qoqol küçələrinin kəsişməsində yerləşən bu Mərkəzin sahəsi 2500 kvadratmetrə yaxındır. Fəaliyyətində əsas məqsədi mütaliəyə marağın artırılması olan Bakı Kitab Mərkəzində Azərbaycan və digər dillərdə dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitablar, musiqi kitabları və notlar da satılacaq. Burada müxtəlif dillərdə və janrlarda 10 mindən çox adda kitab təqdim olunacaq. Mərkəzdə, ümumilikdə, oxucular Azərbaycan dili ilə yanaşı, rus, ingilis, alman, fransız, ispan və ərəb dillərində nəşrlər də əldə edə bilərlər.

Mərkəzin layihəsi üzərində işlənilərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını xoş keçirmələri üçün hər bir məqama xüsusi diqqət yetirilib. Kitab satışı ilə bərabər, burada "Coffeemood" adlı kafe də fəaliyyət göstərir. Qonaqlar kafedə istirahət edərkən Mərkəzdə təqdim olunan kitab və jurnallarla tanış ola biləcəklər. Beləliklə, şəhər mənzərəsinə açılan pəncərələrin önündə çay süfrəsi arxasında mütaliə kitabsevərlərə xüsusi zövq verəcək.








Kitab Mərkəzinin qonaqları burada müxtəlif nəşrlərlə yanaşı, "I love Baku" milli brendinin Azərbaycana dair suvenirləri və "Azərmarka"nın məhsullarını da əldə edə biləcəklər.

*Ardı Səh. 3*

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışı olub



Bundan başqa, Mərkəzdə uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bakı Kitab Mərkəzinin 3 dildə saytı fəaliyyət göstərəcək və oxucular bu internet səhifəsi vasitəsilə kitablar sifariş edə biləcəklər.

Bakı Kitab Mərkəzində oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir. Fondun ulu öndər Heydər Əliyev, tariximiz, mədəniyyətimiz, incəsənətimiz, görkəmli şəxsiyyətlərimiz haqqında bir-birindən maraqlı nəşrləri müxtəlif dillərdə ölkəmizin təbliği baxımından mühüm rol oynayır.

Azərbaycanda vaxtilə kitaba böyük maraq göstərilib, mütaliə sevənlərin sayı isə digər ölkələrlə müqayisədə dəfələrlə çox olub. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzi intellektual səviyyəni yüksəltmək, bilik və savad almaq üçün ən mühüm şərt olan mütaliə etmək kimi ənənəni yaşatmaq və gələcək nəsillərə ötürmək kimi vacib məsələyə böyük töhfə verir. Bu Mərkəzin istifadəyə verilməsi kitaba marağı yenidən bərpa etməklə yanaşı, eyni zamanda, uşaq və yeniyetmələrdə kitaba olan sevgini artıracaq, onlara mütaliə etmək vərdişləri aşılayacaq. Bütün bunlar gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsinə xidmət edir ki, bu məsələyə də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi diqqət yetirir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvinin 1941-ci ildə nəşr olunmuş “İsgəndərnamə” əsəri və Dubrovinin 1866-cı ildə çap edilmiş “Zakavkazye” adlı tarixi əsərinin siqnal nüsxələrinə baxdılar. Mərkəzlə tanış olan dövlətimizin başçısı və xanımı Bakı Kitab Mərkəzinin fəaliyyətinə uğurlar arzuladılar.












Əvvəli Səh. 2

Mərkəzdə quraşdırılan monitorlarda yeni kitablar haqqında məlumatlar veriləcək. Eyni zamanda, kitabsevərlər sensor ekranlarda mərkəzdə satılan kitablar haqqında da məlumatlar alacaqlar. Burada, həmçinin oxu zalı, elmi fəaliyyətlə məşğul olanlar üçün tədris guşəsi var.

Görmə qabiliyyəti məhdud şəxslər, uşaqlar üçün guşələr, müxtəlif ədəbi və mədəni xarakterli təqdimat tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulan məkan kitabsevərlərin ixtiyarına veriləcək.

Burada mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçılar, şairlər, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri olacaq.

# Bakının siması daha da gözəlləşir

## *Prezident İlham Əliyev Bakı Bulvarında yenidən bərpa edilən “Qu quşları” fəvvarə kompleksinin açılışında iştirak edib*





**Avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən “Qu quşları” fəvvarə kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.**

Bakı Bulvarındakı “Qu quşları” fəvvarəsi 1960-cı illərdə qurulub. 1960-1980-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, o cümlədən Bakıda memarlıq kompleksləri və paytaxtın simasını dəyişən binalar inşa edilirdi. Bakı dənizkənarı parkı da hamının diqqətini cəlb edən gözəl məkana çevrildi. Azneft dairəsi ərazisində qurulan “Qu quşları” fəvvarəsi də sakinlərin və şəhərimizin qonaqlarının sevimli məkanlarından biri kimi tanındı. Dahi şair Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin “Yeddi gözəl” poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə sakinlərin çox xoşuna gəldi və necə deyərlər, paytaxtın “əfsanəvi” məkanına çevrildi.

“Qu quşları” fəvvarəsinin kompozisiyası bir neçə dəfə işlənilib. 1960-cı illərin əvvəlində 7 qu quşundan və hovuzdan ibarət olan kompozisiyaya 1980-ci illərdə yeni çalarlar əlavə edildi. 1990-cı illərin əvvəlində ölkədə hökm sürən xaos və baxımsızlıq səbəbindən bir çox digər ictimai obyektlər kimi, bu ansambl da bərbad vəziyyətə düşdü. 2007-ci ildə Dənizkənarı Bulvar yenidən qurularkən onun yerində mərmər fəvvarə kompleksi yaradıldı. Lakin tarixi qu quşları ilə məşhurlaşan fəvvarə üçün hər zaman bir nostalji var idi.



Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi və tarixi siması özünə qaytarıldı. Təkcə paytaxt əhalisinin deyil, ölkəmizə gələn çoxsaylı turistlərin xoşladığı və baş çəkdiyi bu məkan gözəlləşən Bakının görkəminə daha bir xoş ovqat gətirdi. Bu ansamblın yenidən öz tarixi simasını bərpa etməsi nəticəsində bütün dünyada məşhur olan Bakı Bulvarının siması daha da gözəlləşdi.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlər barədə məlumat verdi.

Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində heykəltəraş Murad Sücəddinov tərəfindən 7 qu quşu heykəli hazırlanıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, tarixi ənənələrin qorunması ideyasına söykənən layihə üzərində işlər yüksək səviyyədə həyata keçirilib. Vacib məqamlardan biri də odur ki, qu quşları 1960-cı illərdə olduğu kimi, hər biri fərqli ölçüdə və fərqli hərəkəti təsvir edərkən hazırlanıb. Fəvvarələr qurularkən işıqlandırmaya xüsusi diqqət yetirilib. İndi bu məkan həm yerli sakinlər, həm də turistlər üçün yeni istirahət yeri olmaqla yanaşı, keçmişdə çox sevilən bulvarın bu hissəsində yaşanan xatirələri də canlandıracaq.

Dövlətimizin başçısı və birinci xanım Dənizkənarı Milli Parkda kiçik Venesiya şəhərciyinin ərazisinə də baxdılar. Burada yeni yer örtüyü salınıb, əlavə ağaclar əkilib, ətraf abadlaşdırılıb. Bu gün, eyni zamanda, həm Avropa, həm də Şərq arxitektura koloritini özündə birləşdirən Bakı gözəlliyinə görə dünyada diqqət çəkən, turistlərin səyahət üçün seçdiyi şəhərlərdən biridir. Bakının tarixi rəmzlərindən biri olan “Qu quşları” fəvvarələr kompleksinin yenidən ilkin görkəminə qaytarılması paytaxtımızın hüsnünə yaraşıq verməklə yanaşı, ənənələrin yaşadılması, müasir memarlıqda tarixi izlərin qorunub saxlanılması baxımından da əhəmiyyətlidir.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Elmar Vəliyevin Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev, həmçinin Niyazi Müzəffər oğlu Bayramovu Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib.

***

Dövlət başçısının digər Sərəncamı ilə Niyazi Bayramov Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyev Vaqif Həsənovun Ağdam Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Bundan başqa, Prezident İlham Əliyev İbrahim Ənvər oğlu Mustafayevi Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edib.

***

Prezident İlham Əliyev avqustun 28-də “Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb .

***

Prezident İlham Əliyev “Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğunda xidmət illərinin minimum həddinə və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# Almaniyanın nüfuzlu KİV-ləri Federal Kansler Angela Merkelin Azərbaycana səfərinə geniş yer ayırıblar

***Almaniyanın nüfuzlu kütləvi informasiya vasitələri Federal Kansler Angela Merkelin Azərbaycana səfərini geniş işıqlandırıb.***

AZƏRTAC xəbər verir ki, "ARD" telekanalının rəsmi internet səhifəsi Azərbaycanın enerji sahəsində Almaniya üçün mühüm tərəfdaş ölkə olduğunu yazıb. Məqalədə Angela Merkelin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünə toxunularaq bildirilir ki, liderlərin əsas müzakirə mövzuları enerji məsələləri və Dağlıq Qarabağ münaqişəsinin həlli yolu olub. Vurğulanır ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik etməyə hazırdır. Yazıda Cənub Qaz Dəhlizi layihəsinin Avropa üçün əhəmiyyətinə toxunulub.







"Deutsche Welle" televiziyasının rəsmi saytında da "Azərbaycan enerji təhlükəsizliyi üzrə mühüm tərəfdaşdır" başlıqlı məqalədə Cənub Qaz Dəhlizi layihəsinin böyük əhəmiyyətə malik olduğu vurğulanır. Qeyd edilir ki, Azərbaycan ilə Almaniya daha sıx əməkdaşlıq etmək niyyətindədirlər. Yazıda bildirilir ki, iki ölkə arasında enerji sektoru ilə yanaşı, tikinti və kənd təsərrüfatı sahələri, həmçinin informasiya texnologiyaları və mədəniyyət sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var. Oxşar məqalələr ZDF, t-Online, Nachrichten TV(Naxrixten), Die Welt, Focus, Stern kimi nüfuzlu mətbuat orqanlarının rəsmi internet saytlarında da dərc edilib.

# Seymur Orucov: "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında gənclərimiz fəal iştirak edir"



"Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında gənclərimiz fəal iştirak edir". Bu fikri YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

S.Orucov bildirib ki, xüsusilə Qarabağ həqiqətləri barədə həqiqətlər Avropaya, dünya ölkələrinə yayılmalıdır. Onun sözlərinə görə, bu işdə gənclərimiz vacib rol oynayırlar. "Yəni, Azərbaycanın dünyada tanınmasında gənclərimiz hər zaman fəal olmalıdırlar. Bunun üçün dövlətimiz gənclərə bütün şəraiti yaradıb. Dövlətimizin gənclərə qayğısı gənclərin ictimai fəallığının artmasına, intellektual, fiziki və mənəvi inkişafına öz töhfəsini verməkdədir. Bu yöndə dövlət siyasətinin məqsədi də Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır", - deyə, S.Orucov vurğulayıb.




# Hyustonun Azərbaycan icması yerli sinaqoqa kömək edib

İsraildə çıxan "Haaretz" qəzetində "Harvi qasırğasından bir il sonra Hyustonun yəhudi icması hələ də sarsıntı içindədir" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə 2017-ci ildə Hyuston şəhərinin məruz qaldığı faciəli təbii fəlakətin nəticələrindən, şəhərin yəhudi icmasının üzləşdiyi çətinliklərdən və onlara kənardan göstərilən maliyyə yardımından, o cümlədən İsraildən və Hyustonun Azərbaycan icmasından daxil olmuş ianələrdən bəhs edilir. Qeyd olunur ki, Harvi qasırğası bu şəhərin yəhudi icmasının üzvlərinə məxsus 2 minə yaxın evi yerlə-yeksan edib.

Müəlliflər yazırlar ki, İsrail tarixində ilk dəfə bu dövlətin hökuməti ABŞ-dakı hər hansı icmanın üzləşdiyi fəlakətə görə ona 1 milyon dollar yardım ayırıb. Maliyyə yardımı Hyustondakı beş yəhudi təşkilatına göndərilib. Məqalədə daha sonra qeyd olunur ki, Hyustonun mühafizəkar mövqeli Bet Yeşurun sinaqoquna 2 minə yaxın üzvü olan Azərbaycan icmasından 30.000 dollar məbləğində ianə verilməsi böyük heyrət doğurub.

Məqalənin müəllifləri Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının prezidenti İradə Axundova ilə görüşüb bu sinaqoqa maliyyə yardımı barədə söhbət ediblər. İ.Axundova vurğulayıb ki, "bu sinaqoq insanlar üçün çox yaxşı işlər görüb". O daha sonra bildirib ki, İsrail etdiyi təşkilat gələn ilə kimi sinaqoqla birgə konsert təşkil etməyi planlaşdırır. Bu konsert sülh və həmrəylik rəmzi olacaq.

Xatırladaq ki, keçən il avqustun 26-da Hyustonu öz cənginə almış, dördüncü kateqoriyaya adi edilən Harvi tropik qasırğası 2005-ci ildə baş vermiş Katrin qasırğasından sonra Meksika körfəzində ən güclü qasırğa hesab edilir. Qasırğanı müşayiət edən leysan yağışları Texasın cənub-şərq hissəsində fəlakətli daşqınlara səbəb olub. Nəticədə minlərlə ev dağılıb, 83 nəfər həlak olub, Texas ştatının iqtisadiyyatına ciddi ziyan vurulub.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər. AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 28-də Xaçmaz şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.***



Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

29 avqust 2018-ci il

# Xalçaçılığın inkişafına dövlət qayğısı artır



İlham Əliyev: "...ölkəmizdə 30 xalçaçılıq fabriki yaradılacaq və minlərlə insan, xüsusilə, qadınlar işlə təmin olunacaqlar"





***Azərbaycanda qeyri-neft sektorunun inkişafının ölkə iqtisadiyyatına təsiri müstəsnadır. Dövlət tərəfindən qeyri-neft sektoruna göstərilən diqqət, yaradılan şəraitin nəticəsidir ki, müsbət göstəricilər əldə olunur. Dünya mədəni irsində yer alan Azərbaycan xalçaçılıq sənəti bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi qərarların nəticəsində, yeni inkişaf dövrünü yaşayır.***

Ölkə Prezidentinin 7 dekabr 2004-cü il tarixində "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq etməsi, 2005-ci il fevralın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq etdirilməsi barədə imzaladığı Fərmanı Azərbaycanda xalçaçılığın inkişaf tarixində yeni səhifələr açmaqla, onun daha da intensiv inkişafına misilsiz töhfə vermiş oldu. Qeyri-neft sektorunun inkişafının prioritet təşkil etdiyi müasir dövrdə dövlət başçısının "Azərxalça"nın yaradılması barədə Azərbaycan Prezidentinin 2016-cı ilin 5 may tarixli Sərəncamı isə xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə, bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsinə geniş imkanlar açmış oldu.

"Azərxalça"nın xətti ilə Azərbaycanın bir çox bölgələrində xalça fabrikləri istifadəyə verilib. "Azərxalça" ASC-nin, ilkin olaraq, Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba və Xaçmazdakı müəssisələr dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilib. Bu müəssisələri materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 18 milyon dollar olan "Yunəyirici - boyaq" fabrikinin, Horadiz, Şəmkir, Quba və Xaçmazda 5 regional yun və boyaq tədarükü məntəqəsinin inşası ilə yanaşı, digər filialların binalarının tikintisi də davam etdirilir. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verir və onu stimullaşdırır.

## "İPLƏRDƏN TUTMUŞ, BOYALARA QƏDƏR BÜTÜN MATERİALLAR AZƏRBAYCANDA İSTEHSAL OLUNACAQDIR"

Görülən işlərin davamı olaraq avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının açılışı olub. Bu, bir daha təsdiq edir ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafına dövlət qayğısı artır. Yeni istifadəyə verilən İsmayıllı filialının ümumi sahəsi 1252,88 kvadratmetr olan binasında 150 toxucunun və 12 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağsu, İsmayıllı, Qobustan, Şamaxı, Ağdaş, Göyçay, Hacıqabul, Kürdəmir, Salyan, Ucar, Zərdab, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarının kəndlərində toxunan orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin, respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Filialın açılışı zamanı müəssisənin kollektivi ilə görüşündə xalçaçılığın inkişafı ilə bağlı çox ciddi tədbirlərin görüldüyünü bildirən Cənab Prezident İsmayıllıda istifadəyə verilən müəssisənin, son müddət ərzində, açılan sayca beşinci fabrik olduğunu bildirib: "İlin sonuna qədər daha beş fabrik açılacaq. Ümumiyyətlə, nəzərdə tutulur ki, ölkəmizdə 30 xalçaçılıq fabriki yaradılacaq və minlərlə insan, xüsusilə, qadınlar işlə təmin olunacaqlar. Bu fabriklərdə çalışanlar da qadınlardır. Biz qadınlar üçün də iş yerləri yaradırıq. Burada istehsal olunan, toxunan xalçalar həm ölkə daxilində, həm də xaricdə satılacaq və beləliklə, Azərbaycan öz ixrac məhsullarını dünyaya daha da geniş formada təqdim edəcəkdir".

Qeyd edək ki, İsmayıllı filialında 150-yə yaxın insan işləyəcək və Cənab Prezidentin vurğuladığı kimi, bütün avadanlıqlar, bütün dəzgahlar, iplər - hamısı dövlət tərəfindən təmin olunur. Ölkə başçısı yaxın aylarda isə Azərbaycanda əyirici-boyaq fabrikinin də işə düşəcəyini diqqətə çatdırıb: "Ondan sonra, ümumiyyətlə, xaricdən heç bir material gətirməyə ehtiyac qalmayacaq. Deməli, iplərdən tutmuş boyalara qədər, bütün materiallar Azərbaycanda istehsal olunacaqdır".

## "MƏNİM QOYDUĞUM VƏZİFƏLƏR, VERDİYİM TAPŞIRIQLAR YERİNƏ YETİRİLİR VƏ İSMAYILLI RAYONUNDAKI XALÇAÇILIQ FABRİKİ BUNU BİR DAHA GÖSTƏRİR"

Azərbaycanda xalçaçılığının inkişafının çox böyük tarixi və böyük gələcəyi var. Xalçaçılıq bizim milli sərvətimizdir və bu sərvət qorunur və yaşayır. Zaman-zaman bir nəsildən digər nəslə ötürülən bu sənət bu gün gənclərə öyrədilir. Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir. Artıq ilk məhsullar "Azərbaycan brendi" olaraq beynəlxalq sərgilərdə nümayiş olunur, əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbat böyükdür. Azərbaycan xalçalarının Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qruplarına aid 300-dən çox xalça çeşnisi hazırlanıb və onların bir qismi istehsalatda tətbiq edilib.

Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl görülən işlər bu sahənin inkişafına daha da geniş imkanlar açır. Dövlət başçısının sərəncamları və həyata keçirilən tədbirlər bunu deməyə əsas verir. "Mənim qoyduğum vəzifələr, verdiyim tapşırıqlar yerinə yetirilir və İsmayıllı rayonundakı xalçaçılıq fabriki bunu bir daha göstərir" - deyə Cənab Prezident açılış zamanı bildirib.

***Zümrüd BAYRAMOVA***




# Azərbaycanın birinci xanımı: xeyirxahlıqla dövlətçilik ruhu birləşəndə

***Ölkə tarixində qadınların yüksək sosial statusa malik olduğunu təsdiq edən çoxlu sayda nümunələr vardır. Azərbaycan qadını hər şeydən öncə ana və ailənin tərbiyəçisidir. Müasir dövrümüzdə qadının, ümumiyyətlə, ictimai işlərdə fəal olması da mühüm şərt sayılır. Azərbaycanda bunun ən gözəl nümunəsi ölkənin birinci xanımı və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır. Bu günlərdə ölkə ictimaiyyəti birinci xanımın doğum gününü qeyd etdi. İnsanların münasibəti göstərir ki, cəmiyyət Mehriban xanımın xeyirxahlığı, xoşməramlılığı ilə yanaşı, dövlətin idarə edilməsində, Prezidentin tapşırıqlarını yerinə yetirməkdə fəaliyyətini də yüksək qiymətləndirir. Mehriban xanım müasir dövrdə böyük əhəmiyyəti olan mənəvi-əxlaqi keyfiyyətlərlə dövlət xadimi olmağı üzvi şəkildə birləşdirə bilir. Bu məqamların fövqündə Mehriban xanım Əliyevanın fəaliyyətinə təhlili nəzər salmağa ciddi ehtiyac görürük.***

## Yüksək mənəvi dəyərlərin daşıyıcısı: **xoşməramlı elçi**

Çağdaş dünyamızda qadının sosial-mədəni və siyasi həyatda statusu ilə yanaşı, rolu da böyük diqqət mərkəzindədir. Ən yüksək inkişaf etmiş ölkələrdə belə qadınların cəmiyyətdəki fəallığı önəm daşıyır. Elə ölkələr də var ki, zərif məxluqun cəmiyyət həyatında rolu ənənəvi olaraq yüksək qiymətləndirilib. Azərbaycan belə ölkələrdəndir. Azərbaycan qadını gözəl ailə sahibi, tərbiyəçi və etibarlı həyat yoldaşı olmaqla bərabər, cəmiyyətdə yüksək nüfuzu olan müqəddəs varlıq kimi qəbul edilib. Ölkənin tarixinə nəzər salanda görürük ki, bu tezisi təsdiq edən çoxlu sayda faktlar vardır. Sara Xatun, Nüşabə, Məhsəti, Natəvan, Həcər, Zərifə Əliyeva, Aida İmanquliyeva... Siyahı uzundur...

Azərbaycanda qadının yüksək sosial, mədəni, tərbiyəvi və siyasi statusunu çox uğurlu və gözəl şəkildə öz həyat fəaliyyəti ilə təsdiq edən Mehriban xanım Əliyevanın vurğulanan kontekstdə xüsusi yeri vardır. Çünki müasir tarixi mərhələdə istənilən ölkədə qadının dövləti işlərdə, mədəni fəaliyyətdə, xeyirxahlıqda və beynəlxalq aləmdə tanınmaqda özünü tam təsdiq etməsi böyük intellekt, fədakarlıq, geniş ürək, çalışqanlıq və yüksək idarəetmə qabiliyyəti tələb edir. Mehriban xanım bütün bu keyfiyyətləri yüksək şəkildə özündə birləşdirən şəxsiyyətdir.

Mehriban xanım Əliyevanın fəaliyyəti ilə bağlı çox araşdırmalar aparılır. Azərbaycanın Birinci vitse-prezidentinin yüksək mənəvi-əxlaqi keyfiyyətləri, işgüzarlığı, xeyirxahlığı və idarəetmə bacarığının müxtəlif cəhətləri təhlil edilir. Onlardan görünür ki, ölkənin birinci xanımı gözəl keyfiyyətlərə malik olduğu kimi, həm də böyük işgüzarlıq sahibidir. Bu məqam ciddi əhəmiyyət daşıyır. Çünki azərbaycanlı qadının yorulmadan çalışması, ən yüksək vəzifədə belə böyük məsuliyyət hiss etməsi və xeyirxahlıq, qayğıkeşlik prinsipindən zərrə qədər də kənara çəkilməməsi digər məqamlarla yanaşı, milli mənəvi keyfiyyətlərin dünyaya nümayişidir. Birinci vitse-prezident təyin olunandan bir neçə gün sonra Mehriban xanım "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində hər şeydən öncə yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışıb. Azərbaycanın birinci xanımı deyib: "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam".

Bu, bütün azərbaycanlılar üçün böyük nümunədir. Prezident tərəfindən hansı vəzifəyə təyin edilməsindən asılı olmayaraq, insan ilk növbədə məsuliyyət hiss etməli, etimadı doğrultmaq barədə düşünməlidir. Mehriban xanım Əliyeva şəxsi nümunəsi ilə bu ismarıcı hər bir məsul vəzifə tutan kadrlara verib. Bu, onu göstərir ki, Azərbaycanın birinci xanımı həm də dövləti əhəmiyyəti olan məsələlərdə kifayət qədər yüksək mədəniyyət və məsuliyyət nümayiş etdirir.

Mehriban xanım Əliyeva eyni məsuliyyət və yüksək zəhmətkeşliklə Azərbaycanın tarixini, mədəni irsini, ölkənin bugünkü siyasi və ictimai gerçəkliklərini yorulmadan dünya ictimaiyyətinə çatdırıb. Bu kontekstdə Mehriban xanımın ifadə etdiyi aşağıdakı fikirlər olduqca maraqlıdır. Birinci vitse-prezident ifadə edib: "Təbii ki, UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi, bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bununla yanaşı, Azərbaycanın bugünkü siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi. Düşünürəm ki, bu istiqamətdə də xeyli iş görməyə nail olmuşam. Buna görə də mən gələcəyə nikbin baxıram. Düşünürəm ki, bütün bu illər ərzində toplanan təcrübə, vərdişlər mənə kömək edəcək".

Bu cür yüksək işgüzarlıq keyfiyyətinə, daxili mənəvi-əxlaqi və milli saflığa malik bir xanımın bütövlükdə bəşər mədəniyyətinə verdiyi töhfələr tamamilə məntiqə uyğundur. Ən yüksək beynəlxalq səviyyədə etiraf edilir ki, Mehriban xanım dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə böyük töhfələr verir və bu, davam edir. Vurğulanan aspektdə UNESCO-nun sabiq baş direktoru İrina Bokovanın Mehriban xanıma ünvanlanmış aşağıdakı sözləri çox qürurvericidir: "Sizi xoşməramlı səfirlər sırasında görmək bizim üçün - UNESCO üçün şərəfdir. Sizin nailiyyətlərinizin miqyasını bir adla əhatə etmək çətindir. Siz UNESCO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız".

## Dövlətçilik uğrunda: **Birinci vitse-prezidentin idarəçiliyə töhfələri**

Bizcə, Mehriban xanım Əliyevanın bir dövlət xadimi kimi geniş potensialının reallaşmasına Prezident İlham Əliyevin uzaqgörənliklə onu ölkənin Birinci vitse-prezidenti təyin etməsi ciddi təkan verib. Mehriban xanım fəaliyyəti ilə idarəetmə bacarıqlarını, dövlət başçısının tapşırıqlarını qüsursuz yerinə yetirmək qabiliyyətini nümayiş etdirməkdədir.

Maraqlıdır ki, Azərbaycanın birinci xanımı Birinci vitse-prezident kimi işlərinin çox olmasına baxmayaraq, öz xeyirxahlıq fəaliyyətini səngitməyib. Mehriban xanım Əliyeva bunun şüurlu həyat seçimi olduğunu vurğulayır: "İstər UNESCO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".

Açıq demək lazımdır ki, bütün dünya üçün bu kimi keyfiyyətlərə malik dövlət adamları çox gərəklidir. Çünki BMT-nin hesabatlarında da göstərildiyi kimi, Myanmardan tutmuş Afrika cəngəlliklərinə qədər hər yerdə uşaqlara, qadınlara, qocalara, köməksizlərə qarşı ciddi hüquq pozuntuları olur, yoxsulluq, səfalət baş alıb gedir, zorakılıq edilir və s. Belə bir şəraitdə əsl dövlət adamları həm də xeyriyyəçi olmalı, köməksizə əl uzatmalı, İslamda deyildiyi kimi, "yaradılanı yaradan üçün sevməlidir".

Mehriban xanım Əliyeva həm dövlət idarəçiliyində ciddi rol oynayır, cəmiyyətin tərəqqisi üçün bütün gücü ilə çalışır, həm də yüksək mənəvi keyfiyyət nümayiş etdirərək, insanlara yardım əlini uzadır, böyük şəfqətlilik göstərir. Məlumdur ki, şəfqətli olmaq dini baxımdan həmrəyliyin ən gözəl əlamətidir. Şəfqətli insan bütün bəşəriyyətlə həmrəydir. O, insanlıq naminə humanizm göstərir. Yəni özünü başqalarına nümayiş etdirmir, sadəcə, insanın yaxşılığı, onun sağlamlığı və rahatlığı üçün qayğı göstərir. Mehriban xanım həyatı boyu fəaliyyətində məhz bu cür yüksək keyfiyyətlərə malik olduğunu sübut edib və etməkdədir.

Bu kontekstdə Azərbaycanda demokratiyanın, multikulturalizmin, milli dövlətçiliyin inkişaf etdirilməsində Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti kimi fəaliyyəti ayrıca vurğulanmalıdır. Azərbaycanın birinci xanımı bütün istiqamətlərdə Prezidentin həyata keçirdiyi islahatlar proqramına ciddi dəstək verir və konkret işləri ilə həmin istiqamətdə fəaliyyət göstərir. Azərbaycan dövlətçiliyinin yeni zirvələrə yüksəlməsi üçün bunun əhəmiyyəti böyükdür. Çünki Prezidentin bütün tapşırıqlarına dəqiqliklə əməl olunursa, onun həyata keçirdiyi kurs reallaşırsa, müstəqil dövlət quruculuğu baş tutur və qarşıya qoyulan strateji hədəflərə çatmaq imkanları xeyli genişlənir. Bunlar bir daha onu təsdiq edir ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi idarəçilikdə rolu əhəmiyyətlidir və o, bunun öhdəsindən layiqincə gəlir. Bütün bunlara görədir ki, insanlar birinci xanımı sevir və onu dəstəkləyirlər. Mehriban Əliyevaya inam böyükdür. Azərbaycanın birinci xanımı da insanları çox gözəl duyur və bunu yüksək qiymətləndirir: "Mənim üçün ən vacibi budur ki, inam duyuram. Bax, bu, həqiqətən də mənə real inam, güc verən amildir".

Təsadüfi deyil ki, Mehriban xanımın doğum gününü bütün Azərbaycan qeyd etdi. Ölkə ictimaiyyəti Birinci vitse-prezidentin xeyirxahlığını yüksək dəyərləndirir və eyni zamanda, dövlət idarəçiliyində oynadığı yüksək rolu dərk edir. Biz də Mehriban xanımın ad gününü təbrik edirik və ölkənin birinci xanımına bundan sonra da millət, insanlıq və bəşəriyyət naminə böyük uğurla fəaliyyət göstərməsini arzulayırıq!

**Newtimes.az**



## Ermənistanda “dirijor” kimdir: Paşinyan yoxsa?..

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Ermənistan, sözün hər mənasında, maraqlı tamaşa səhnəsinə çevrilib. Bu siyasi tamaşanın ilk pərdəsi başlayır Nikol Paşinyanın “inqilabı” ilə, ardınca davam edir. 20 ildir ki, Ermənistanı rəzil günə qoyan Qarabağ klanının siyasi liderlərinin bir-bir “dənlənilib” içəri atılması ilə. Ermənistanda açıq-aydın “qarabağlı-ermənistanlı” savaşına “benzin” tökülür. Amma bəri başdan deyim, yadınızda qalsın: Bu həbslər N.Paşinyanın seyrək tüklü başı üçün deyil! Bu adamın ortaya atılması kimin ssenarisidir? Putinin, yoxsa Qərbin? Bu, hələ də bağlı məsələdir. Şəxsən mən inanmıram ki, Qərb 2008-ci ildəki uğursuz Gürcüstan ssenarisindən sonra, Moskvanın Qafqazdakı əsas fosforuna “əl” uzatsın. Bu, sadəcə, inandırıcı görünmür. Qərb nəyə söykənib, Rusiyanın Qafqazdakı yuvasına “çomaq” soxsun? Əgər iddia edildiyi kimi, Qərbin Qafqazda Rusiyanın “gözlərini ovmağa” gücü çatırsa, onda nədən onu “kor” qoymağa” çalışmır? Sadəcə, məntiq xaricində olan məsələdir...***

Amma başqa bir yandan V.Putinin nədən küçə izdihamı ilə S.Sarkisyanı N.Paşinyanla əvəzləməsi də o dərəcədə qaranlıqdır. Bəyəm, Ermənistanda Moskvanın əmrlərinə qarşı gələcək təfəkkürdə xalq və ya siyasi qüvvəmi var? Qətiyyən! Bəs nədən Yerevan küçələrində “inqilab” teatrı qurulmuşdu? Daima Rusiyanı özünün əsl sahibi bilən bir xalqın Moskvaya arxa çevirəcəyi gülünc məsələdir. O ki qalsın, Ermənistanda müstəqil siyasi qüvvənin ortaya çıxıb “inqilab” eləməsi. Sadəcə, N.Paşinyan V.Putinin bir layihəsidir. Amma məqsəd nədir? Bax, əsl qaranlıq məsələ budur!

Sübut? Al, sənə sübut! Paşinyan əvvəlcə “kişi-kişi” qürrələnib, içəri “soxduğu” R.Koçaryanı məcbur olub azadlığa buraxdırdı! Nədən? Çünki bu qərarı onun özü verməmişdi axı. O, kimdir ki, qərar da versin? Moskvadan gələn istənilən zəng, N.Paşinyan üçün qeybdən gələn səs kimidir. Çünki sadiq arvad ərinə necə bağlıdırsa, tarix boyu bu ermənilər də rus çarlarına, hətta sədaqətli arvaddan da daha çox bağlı olublar. Ona görə yox ki, sədaqətli olmağı sevirlər. Ona görə ki, Qafqazda rusların kölgəsi olmasa, bu barbar və köçəri xalqı qoruyacaq heç kimsə yoxdur. Üstəlik, etdikləri cinayətlərə görə qulaqlarını kəsmək istəyən o qədər qonşu xalq var ki...

Hələ də, kimin “uşağı” və kimin siyasi layihəsi olduğu sirri-xuda olaraq qalan N.Paşinyan, hakimiyyəti serjikdən qoparandan sonra, səhnə arxasındakı siyasi dirijorlarının tərtib etdiyi plan əsasında əməllicə “ovlama” siyasəti üzərində baş sındırırdı. Sözsüz ki, məqsəd aydındır,- neçə on illərdir ki, Ermənistanda at oynadan hakim Qarabağ klanının geri dönüşünü birdəfəlik siyasi məzarlıqda dəfn etmək, onlardan gələ biləcək istənilən təhlükəni elə bəri başdan neytrallaşdırıb, tamamilə aradan qaldırmaq. Amma bu plan alındımı? Çətin məsələdir. Üstəlik, R.Koçaryanın zindana salınıb, sonra da dərhal azadlığa buraxılması, həm bu klanın hadisələrə birbaşa müdaxiləsini gündəmə gətirdi, həm də N.Paşinyan hakimiyyətinin “Qarabağ klanı”na qarşı uğursuzluğunu açıq şəkildə ortaya qoydu.

Çünki Ermənistandan tutmuş Moskvaya qədər, xüsusilə Kremldəki Putin aparatındakılara da aydındır ki, “Qarabağ klanı2 gücünü hələ də saxlayır və hər an istənilən ağır və sərt cavab addımlarına imza qoya bilər. Bura isə, ilk növbədə, N.Paşinyanın və onun siyasi dirijorlarının yeni hakimiyyətinin elə ilk andaca məhv edilməsi daxildir. Çünki “Qarabağ klanı”nın bu məsələdə böyük təcrübəsi var. Ən azı, Ermənistan parlamentinin tamamilə güllədən keçirilib cəhənnəmə göndərilməsi kimi “məşhur” təcrübə bu klanın hansı işlərə imza ata biləcəyinin tarixi siqnalıdır. Odur ki, Ermənistan daha bir qanlı “bombaya” hazırlaşır...

# Bəhruz Quliyev: “Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm layihələr həyata keçirir”

***“Azərbaycan Avropa ölkələri ilə, o cümlədən Almaniya ilə fəal əməkdaşlıq münasibətlərinə malikdir. Bu gün ölkəmizin Avropa İttifaqı ilə əlaqələri yüksələn xətlə inkişaf edir. Avropa İttifaqının aparıcı dövləti olan Almaniya ilə də Azərbaycanın iqtisadi, siyasi, humanitar və mədəni sahələrdə münasibətləri yüksəkdir.***

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm layihələr həyata keçirir. Almaniyanın Federal Kansleri Angela Merkelin ölkəmizə səfəri zamanı da bu faktorlar vurğulandı. Belə bir halda səfər zamanı Azərbaycan Prezidentinin və Almaniyanın Federal Kanslerinin birgə mətbuat konfransında alman jurnalistin ölkəmizdəki demokratik vəziyyət, insan haqları ilə bağlı qərəzli sualı, eləcə də Azərbaycanı Əfqanıstanla səhv salması ən azı təəssüf doğurur”. Bu fikirləri isə “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib.



B.Quliyev bildirib ki, alman jurnalistin həmin sualı ilk növbədə Almaniya mediasının imicinə zərbə vurur. Onun sözlərinə görə, bu sualın qərəzli və sifarişli olduğu açıq-aydın görünür: “Həmin jurnalistə bu sualı sifariş verənlərin Azərbaycan haqqında təsəvvürləri yanlışdır, ya da məqsədli şəkildə anti-azərbaycançı mərkəzlər tərəfindən hazırlanıb. Azərbaycanda söz və mətbuat azadlığının, insan hüquqlarının təmin olunması dövlət siyasətinin prioritetidir. Bu sahələrdə mükəmməl hüquqi baza mövcuddur. Bütövlükdə, Azərbaycan demokratik dəyərlərə sadiqdir. Bu reallıq nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Çünki demokratik inkişafla bağlı dövlətimizin, Prezidentimizin siyasi iradəsi ortadadır. Azərbaycan dövləti demokratik təsisatların inkişafına güclü dəstək verir. Həm KİV-ə, həm də QHT sektoruna göstərilən dəstək buna əyani sübutdur. Bunları görməmək isə ən azı qərəzin göstəricisi ola bilər”.

Baş redaktor qeyd edib ki, Azərbaycanda heç kim siyasi baxışlarına, peşə fəaliyyətinə görə həbs olunmayıb. Müxtəlif cinayətlər törətmiş şəxslər isə, təbii ki, qanun qarşısında cavab verməlidir.

Alman jurnalistin sualında Azərbaycanın Əfqanıstan kimi təqdim olunmasına gəlincə, B.Quliyev söyləyib ki, həmin jurnalist ilk növbədə Almaniya mediasına zərbə vurmaqla, həm də özünü gülünc vəziyyətə salıb: “Bu sualdakı yanlışlıq jurnalist tərəfindən əvvəlcədən redaktə oluna bilərdi. Əfqanıstanın adının məqsədli şəkildə çəkilməsi də mümkündür. Amma bütün hallarda öz ölkəsinin hökumət başçısının səfərini işıqlandıran bir jurnalistin bu cür kobud səhvi gülünc olmaqla yanaşı, Almaniya mediasına da hörmətsizlikdir”.

**Nardar BAYRAMLI**

# Şəmkir sərhəd dəstəsində hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə Tədbirlər Planına uyğun olaraq Şəmkir sərhəd dəstəsində “Hərbi vətənpərvərlik: silahlı qüvvələrimiz və milli-mənəvi dəyərlərimiz” mövzusunda seminar keçirilib. Qurumdan SİA-ya verilən məlumata görə, seminardan öncə iştirakçılar hərbi hissədə Heydər Əliyev İdeoloji Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən zəngin fotoekspozisiya ilə tanış olublar.***

Dövlət himninin səslləndirilməsi ilə başlanan tədbirdə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bu cür seminarların keçirilməsində əsas məqsədin ölkəmizdə vətənpərvər və sağlam düşüncəli gənclər yetişdirmək, onları Vətənə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə etmək, eləcə də dini fanatizm, dini radikalizm və dini ekstermizm meyllərinə qarşı mübarizə aparmaq olduğunu bildirib. Sədr müavini vətənpərvərliyin gücləndirilməsində milli-mənəvi dəyərlərin özünəməxsus rolu olduğunu, DQİDK-nın bu istiqamətdə müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, bütün hərbi hissələrdə maarifləndirici tədbirlərin keçirildiyini qeyd edib.

Tədbirdə yaradılmasının 100 illiyini bu yaxınlarda qeyd etdiyimiz, ən




müasir silah və texnikaya malik olan Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən qabaqcıl ordularından birinə çevrildiyi, 2018-ci il iyun ayının 26-da “Azadlıq” meydanında yüksək təntənə ilə keçirilən möhtəşəm hərbi paradda respublikamızın hərbi qüdrətinin bütün dünyaya bir daha nümayiş olunduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında işğal altında olan torpaqlarımızı mənfur düşmənlərdən azad etməyə hər an hazır olduğumuz qürurla vurğulanıb. Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin sahə üçün müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırıldığını xüsusi qeyd ediblər. Seminarda dini amillərdən istifadə edərək radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlığı göstərməsinin zəruriliyi diqqətə çatdırılıb. Tədbirin sonunda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş “Şəhadət” sənədli filmi nümayiş etdirilib.

## “DSMF-nin regional bölmələri DOST-a inteqrasiya olunacaq”

DOST mərkəzləri “ASAN xidmət” mərkəzlərinin daxilində deyil, ayrı qurum kimi fəaliyyət göstərəcək”. SİA-nın xəbərinə görə, bu fikirləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dünən keçirilən mətbuat konfransında deyib. O bildirib ki, nazirliklə ASAN Xidmət arasında əməkdaşlıq sferaları geniş olduğundan müəyyən sahələrdə birgə fəaliyyət göstəriləcək. S.Babayev DOST Mərkəzləri yaradıldıqdan sonra Dövlət Sosial Müdafiə Fondunun regional bölmələrinin fəaliyyəti ilə bağlı məsələyə də aydınlıq. O deyib ki, Mərkəzin regionlarda bölmələri açıldıqca Fondun regional bölmələri həmin mərkəzlərə inteqrasiya olunacaq: “Ümumilikdə bütün bölmələr vahid mərkəzdən idarə olunacaq”.



# Azərbaycan dünyaya birgəyaşayış meyarlarını sərgiləyir

***Etnik münaqişələr, qarşıdurma, təcavüz kimi hallara təsadüf etdiymiz zamanda, ölkəmiz Şərqə məxsus qonaqpərvərlik ənənələrini və birgəyaşayış mədəniyyətini qoruyub-saxlayır. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti dövlətimizi çoxmillətli, çoxkonfessiyalı diyar kimi, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz əsrlər boyu burada yaşayan bütün millətlərin və dinlərin nümayəndələri üçün Vətən olmuşdur: "Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirik ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır".***



Azərbaycanda 2008-ci ildən "Bakı Prosesi" başlanılmışdır. "Bakı Prosesi" Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədi daşıyır. Belə ki, Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransında islam və Qərb sivilizasiyaları, eləcə də, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı Prosesi" təşəbbüsü irəli sürülmüşdür. Konfransda "Mədəniyyətlərarası dialoqu təşviq etmək naminə Bakı Bəyannaməsi" qəbul edilmişdir. 2010-cu ildə BMT-nin 65-ci sessiyasında Azərbaycan Prezidentinin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi çağırışı "Bakı Prosesi"ni regional təşəbbüsdən qlobal təşəbbüsə çevirdi. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ideyası UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası, ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndi və 2011-ci ilin aprel ayında Bakıda ilk forum keçirildi. Həmin ildən etibarən hər iki ildən bir keçirilən forumda, ümumilikdə, 160 ölkədən 6 mindən çox dövlət və hökumət rəsmisi, beynəlxalq təşkilatların rəhbərləri, mədəniyyət nazirləri və səfirlər, parlamentarilər, diplomatlar, QHT və media nümayəndələri, jurnalistlər və ekspertlər iştirak ediblər.

Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ölkəmizdə tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır. Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. Əlbəttə ki, bu gün Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilib ki, bunun da müxtəlif əsasları mövcuddur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkədə milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır və bu, Azərbaycan xalqının güc mənbəyidir.

Bu gün, əlbəttə, ölkəmizdə keçirilən tədbirlərin müvəffəqiyyətlə reallaşdırılmasında "Bakı Prosesi"nin əhəmiyyətli rolu vurğulanır. "Bakı Prosesi" inklüziv cəmiyyətin qurulması, onun davamlı inkişafına nail olmaq üçün dinlər, mədəniyyətlər və müxtəlif xalqlar arasında dialoq və əməkdaşlığı təşviq edən yeganə qlobal əhəmiyyətli platformadır. Azərbaycan son on il ərzində, müntəzəm olaraq, dünya ölkələrinin siyasi, mədəniyyət və dini liderlərini bir araya gətirdi. Sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələr beynəlxalq miqyasda böyük rezonans doğurur. Azərbaycan dövləti tərəfindən həyata keçirilən xoşməramlı siyasət, həmçinin, müxtəlif mədəniyyətlərin və qitələrin qovuşuğunda yerləşən ölkəmizin həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə nail oldu.

Paytaxtımız Bakı şəhərinin 2025-ci ildə "Ekspo" Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyinin irəli sürülməsi də elə ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, sülhün, əmin-amanlığın, sabitliyin hökm sürdüyü bir məkan olmasından qaynaqlanır. Universal sərgi, dialoq, qarşılıqlı fəaliyyət üçün yeni bir güclü platforma kimi səciyyələndirilir. İdeyalar məkanı kimi tanınan müstəqil dövlətimiz, artıq özünü təsdiqləyib. Mədəniyyətlərarası dialoqun inkişafı sahəsində həyata keçirdiyi layihələr onun ölkənin avanqard qabiliyyətini bir daha nümayiş etdirir.

Əminliklə vurğulamalıyıq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsünün bəhrəsi olan "Bakı Prosesi" təkcə ölkəmiz üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyətlidir. "Bakı Prosesi" sübut etdi ki, dünyanın bir çox ölkələri layihəyə dəstək verməklə, onun təşəbbüskarı ilə həmrəydirlər. Bu həmrəylik müasir dövrümüz üçün olduqca vacib olan məqamdır. Dünyanı sülhə, əmin-amanlığa çağırış üçün birgə təşəbbüslər və müzakirələr mövcud qarşıdurmaların aradan qaldırılmasında əhəmiyyətlidir.

Onu da qeyd etmək yerinə düşər ki, beynəlxalq tədbirlər məkanı olan Azərbaycanda keçirilən tədbirlər, bir daha təsdiq edir ki, Azərbaycan dünyaya yalnız enerji daşıyıcıları deyil, multikultural dəyərləri, ümumbəşəri ideyaları və birgəyaşayış meyarlarını da ixrac edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Xaçmazda "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib

Hazırda Yaxın və Orta Şərqdə baş verən müharibələrin, qanlı toqquşmaların fonunda ölkəmizdə azərbaycançılıq məfkurəsinin, milli-mənəvi dəyərlərin, tolerantlıq siyasətinin daha da möhkəmləndirilməsi və bu mühitin qorunub saxlanılması dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Belə şəraitdə gənc nəslin milli-mənəvi dəyərlərə bağlı, milli ruhda yetişdirilməsi ən vacib amillərdəndir. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə avqustun 28-də Xaçmazda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda keçirilən regional konfransda danışılıb.



Tədbirdə DQİDK-nın, Xaçmaz RİH-in, Qafqaz Müsəlmanları İdarəsinin rəsmi şəxsləri, həmçinin yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə geniş mühazirə ilə çıxış edib.

Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasını ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün respublikamızda dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Konfransda çıxış edən Xaçmaz RİH-in başçısı Şəmsəddin Xanbabayev son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Xaçmazda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində xeyli iş görüldüyünü qeyd edib. Bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün öyrənmək və təbliğ etmək kimi məsuliyyətli vəzifə düşür.

Regional konfransın ilk günü iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb. Konfrans işini avqustun 29-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

## Binəli Yıldırım Azərbaycana gələcək



Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım Azərbaycana səfərə gələcək. SİA bu barədə "Haberler"ə istinadən məlumat verir. Səfərin rəsmi ziyarət olduğu bildirilir. Qeyd edək ki, bu, Yıldırımın TBMM sədri kimi Azərbaycana ilk səfəri olacaq. B.Yıldırım bu il iyulun 12-də parlamentin sədri seçilib.

## Azərbaycanın ikinci peykinin buraxılış tarixi dəyişdirildi



Azərbaycanın "Azerspace-2/Intelsat 38" ikinci geostasionar peykinin buraxılış tarixi cari il sentyabrın 7-dən 18-nə keçirilib. Bu barədə Trend "Arianespace" şirkətinin açıqladığı kosmik buraxılışların siyahısına istinadən məlumat verir. "Azerspace-2/Intelsat 38" peyki "Ariane 5 ECA" raket-daşıyıcısı ilə buraxılacaq. Həmin raket-daşıyıcı Azərbaycanın peyki ilə yanaşı, "Horizons 3e" peykini də aparacaq.

Qeyd edək ki, "Azerspace-2/Intelsat 38" 45 dərəcə şərq uzunluğunda geostasionar orbitə çıxarılacaq. Onun xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxil olacaq.

# "Beşinci kolon" - verilən proqnozlar öz nəticəsini tapacaq

## *Radikallıq və dağıdıcılıq prinsipindən çıxış edən müxalifətin sonu çatıb*

***Artıq yay fəsli başa çatmaq üzrədir və əslində, bütün fəsillərdə uğursuzluq sindromunu yaşayan, hətta özlərinə yaşadan ənənəvi müxalifətin dağıdıcı qanadı yenidən üzə çıxaraq, "fəallıq" göstərməyə cəhd edəcəkdir. Əslində, bu cəhdlərdən heç bir nəticənin hasil olmayacağını bəribaşdan da deyə bilərik. Bir tərəfdən, partiyalar daxilində bitib-tükənməyən intriqalar, "liderlər"in mənəm-mənəmlik sevdaları və həmin sevdalardan doğan avtoritar idarəçilik üsulları, digər tərəfdən, partiyalararası qarşıdurmalar, sədrlərin bir-birlərinə qarşı antipatiya hisslərinin aşırı həddə qədər mövcudluğu sözügedən reallığı tam çılpaqlığı ilə sərgiləməkdədir. Əbəs deyil ki, uzun illər müxtəlif müxalifət partiyalarında təmsil olunan köhnə müxalifətçilər, funksionerlər istefaya gedir və sonda öz gedişlərini bu kimi faktlarla əsaslandırırlar.***



### Əslində, Azərbaycan hakimiyyətinin əldə etdiyi uğurların reallığıdır ki, xaricdə fəaliyyət göstərən erməni lobbiləri və onların buyruq qulları həmin reallıqdan qorxurlar

Dağıdıcıların uğursuzluq sindromlarının özəyini təşkil edən daha bir amil kimi, partiyaların iqtidarın apardığı siyasətin mahiyyətini anlamaq gücündə olmamaları ilə əlaqələndirə bilərik. Ümumiyyətlə, hakimiyyətin apardığı uğurlu daxili və xarici siyasətin məntiqi nəticələri ortada ola-ola, xalqın böyük kəsiminin, məhz iqtidara dəstək verməsi faktorunun mövcudluğu dəfələrlə sübut olunduğu halda, müxalifətin inkarçılıq mövqeyindən çıxış etməsi "liderlərin" əsas zəifliklərinin bariz göstəricisi kimi də qiymətləndirilə bilər. Sadəcə, faktlara diqqət yetirək və həmin faktlardan nəticə çıxaraq. Misal üçün, idman, mədəniyyət, iqtisadiyyat və sair sahələrdə Azərbaycan iqtidarının keçirdiyi bütün mühüm tədbirlər dərhal sosial şəbəkədə oturub, "müxalifətçilik" edənlər tərəfindən hədəfə alınır, müxtəlif xarici təşiklatların verdikləri sifariş xarakterli təlimatlar icra olunur. Əslində, Azərbaycan hakimiyyətinin əldə etdiyi uğurların reallığıdır ki, xaricdə fəaliyyət göstərən erməni lobbiləri və onların buyruq qulları həmin reallıqdan qorxur və çəkinirlər. Bu səbəbdən də, "beşinci kolon" amili ortaya çıxır. Daha dəqiq desək, xarici anti-Azərbaycan dairələr hakimiyyətin siyasi gücünü bilir və dərk edirlər, ona görə də, bəlli məsələlər ətrafında var-gəl edərək, ölkəmizin siyasi-ictimai həyatında müdaxilələr etməyə cəhdlər göstərirlər. Biz, bunu istər seçkilərdə, istər referendumlarda, istərsə də digər mühüm hadisələr ərəfəsində dəfələrlə müşahidə etmişik. Ancaq söz yox ki, dağıdıcı təfəkkürlü müxalifətin hakimiyyətdə yalnız minus axtarması, onların özlərinə kifayət qədər zərbələr vurur.

Daha bir həqiqət isə, yuxarıda qeyd edilən gerçəkliklə əlqələndirilə bilər. Bu gün kimsəyə sirr deyil ki, müxalifətin öz arasında birlik heç vaxt olmayıb. Məsələn, AXCP-"Milli Şura" cütlüyü mitinq keçirir, Müsavat və s. partiyalar onlara gülür, istehza edir, elektorat toplaya bilmədiklərini deyirlər.

Eləcə də, müsavatçılar və s. radikal müxalifət partiyaları eyni addımı atanda, cəbhəçilər eyni mövqedən çıxış edərək, özlərini onlardan üstün hesab edirlər.

Ümumiyyətlə, dağıdıcı müxalifətin bugünkü reallığı, bütövlükdə cəmiyyətimizə, dövlətçilik maraqlarımıza, xəyanət səviyyəsindədir. Çünki bu, daha ağır fəsadları üzə çıxarmış olur.

### Onlar dünyəvilikdən imtina edib, radikal dini kəsimə qahmar çıxırlar

Daha doğrusu, dünyəvilik prinsipindən çıxış edən müxalifətin həmin prinsipdən imtina etməsi, digər tərəfdən, Azərbaycanda dini radikal kəsimin güclənməsinə şərait yaradır. Biz, elə də uzağa getməyərək, Nardaran və Gəncə hadisələrini xatırlaya bilərik. Belə ki, hər iki hadisədə dağıdıcılıq və radikallıq prinsipindən çıxış edən bəlli ənənəvi müxalifət partiyalarının "liderləri" dərhal dini radikallara qahmar çıxdılar. Bu isə, qeyd edilən fikri kifayət qədər sübuta yetirmiş olur.

Nəticədə isə, görünən budur ki, belə müxalifətin fəsildən-fəsilə üzə çıxması və guya siyasət yürütməsi hər ötən ilin təkrarı olacaq. Ona görə də, müxalifətin yeniləşməsi və siyasi arealda sağlam düşüncəli siyasi təşkilatların üstünlük təşkil etməsi daha məntiqəuyğun görünə bilər. Belə ki, ümummilli məsələlərdə, Azərbaycanın daha da güclənməsi istiqamətində hakimiyyətə dəstək vermək kimi faktorlarda bu cür sağlam siyasi addımlar ölkəyə daha çox müsbət siyasi çalarlar gətirə bilər. Ona görə də, xarici qaranlıq dairələrə nökərçilik edərək, üzərlərinə "beşinci kolon" damğası vurduranlar gec, ya tez, siyasi arenadan silinəcəklər. İstəsələr də, istəməsələr də, xalq onları qəbul etmir və onlar özləri də özlərini xalqdan təcrid ediblər. Belə olan halda isə, artıq uzun müddətdir ki, verilən proqnozlar öz nəticələrini tapacaq.

**Rövşən NURƏDDİNOĞLU**

# "KİV-də Azərbaycan dilinin işlənməsi, qorunması və inkişafı"



***Dünən Beynəlxalq Mətbuat Mərkəzində İntellekt Araşdırmalar Mərkəzinin təşəbbüsü ilə "Kütləvi İnformasiya Vasitələrində Azərbaycan dilinin işlənməsi, qorunması və inkişafı" mövzusunda seminar keçirilib. SİA-nın xəbərinə görə seminarda Mətbuat Şurasının İdarə Heyətinin üzvləri, AMEA-nın dilçilik İnstitutunun əməkdaşları və jurnalistlər iştirak edib.***

Tədbirdə ilk çıxış edən "Azadinform.az" saytının baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Niyaz Niftiyev tədbirin Mərkəz tərəfindən həyata keçirilən layihə çərçivəsində baş tutduğunu dilə gətirib. O bildirib ki, layihənin icrası müddətində mətbuatda, mağazaların adında dilçilik normalarının pozulması ilə bağlı monitorinqlər aparılıb, "Kaspi" qəzetində bu mövzuda 12 yazı çap olunub. N. Niftiyev söyləyib ki, dil qaydalarının pozulması ilə bağlı həm saytlarda, həm televiziya, həm də qəzetlərdə problemlər var: "Ekranlarda əsas problem dil üslubu ilə bağlıdır. Televizya sahələrində aparıcı, tərcümə və digərləri ilə bağlı çatışmazlıqlar qalmaqdadır".

AMEA-nına Dilçilik İnstitutunun monitorinq şöbəsinin müdiri Sevinc Əliyeva söyləyib ki, ölkəmizdə 2013-cü ildə dilçiliyin inkişafı ilə bağlı Dövlət Proqramı qəbul olunduqdan sonra vəziyyət xeyli dəyişib, böyük irəliləyişlər var. Dilçilik İnstitutu tərəfindən treninqlərin həyata keçirildiyini deyən S.Əliyeva söyləyib ki, bu treninqlər mətbuatda, eləcə də digər sahələrdə əlverişli nəticələrə malik olub: "Treninqlərə bütün televiziyalarda çalışanlar, xüsusilə də xəbər aparıcıları cəlb olunub. Treninqlərin sonunda fərqlənən aparıcılara Sertifikatlar da təqdim olunub". Şöbə müdirinin sözlərinə görə, televiziya, saytlara yeni əməkdaş gəldikdə özü ilə yeni nitq gətirir: "Ən böyük problem nitq mədəniyyətinin aşağı səviyyədə olmasıdır ki, bu da mütalıə ilə bağlıdır. Aparıcı televiziyada düzgün tələffüz forması nümayiş etdirməlidirlər. Çünki onlar evlərə birbaşa canlı təsir vasitələridir".

Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli isə çıxışında bildirib ki, bu cür tədbirlərin keçirilməsi Mətbuat Şurasının işinə dəstəkdir: "Bildiyiniz kimi Mətbuat Şurası tərəfindən də mediada vəziyyətlə bağlı monitorinqlər keçirilir. Mətbuat dedikdə təkcə çap deyil, bütün mətbuat, eləcə də müasir vasitələri də nəzərdə tuturuq. Elektron, sosial mediaya baxanda klassik mediada vəziyyətin yaxşı olduğunu görmək mümkündür. Ən böyük problem sosial mediadadır. Bəzən gənclər salam əvəzinə "slm", təşəkkür sözünün əvəzinə "tşk" yazır. Biz bununla dilimizi hara aparırıq?". Sədr müavini qeyd edib ki, hazırda dünyada gün ərzində istehsal olunan informasiya ötən 5 il ərzində istehsal olunan informasiya ilə eyni həcmdədir: "Lakin dilin korlanmasına onun qrammatikasına, leksikasına toxunmaq olmaz. Bu gün müasir jurnalistika fəaliyyəti var. Əvvəllər uzun şəkildə ifadə olunan məsələ indi qısa şəkildə cəmiyyətə çatdırıla bilir. Televiziyalarda vəziyyət bərbaddır. Televiziyalarda şou proqramlarda çox böyük və ciddi problemlər var. Bu problemlərin qaldırılmasında ənənəvi jurnalistika yardımçı olmalıdır. Dil necədirsə, onu olduğu kimi yaşatmalıyıq. Dili strukturundan mahiyyətindən çıxartmaq olmaz". Tədbirin davamında çıxış edən natiqlər qeyd ediblər ki, Azərbaycan dilini, onun zənginliyi hər kəs tərəfindən qorunmalıdır. Vurğulanıb ki, Azərbaycan dilinin səlistliyini qorumaq hər bir vətəndaşın borcudur.

# "Səfər Almaniyanın Azərbaycana üstünlük verdiyini göstərir"



***"Almaniya Kansleri Angela Merkelin Azərbaycana səfərinin ölkəmiz üçün böyük əhəmiyyəti var. Əvvəla qeyd etmək istəyirəm ki, Angela Merkelin Cənubi Qafqaz ölkələrinə turnesi çərçivəsində son dayanacaq nöqtəsi kimi Azərbaycanı seçməsinin də böyük mənası var. Bu onu göstərir ki, xanım Merkel Ermənistanın səfalətdə yaşayan, köhnə, dilənçi, ümumiyyətlə Avropanın baxışlarına uyğun gəlməyən bir ölkəsinin əhval-ruhiyyəsi ilə geri qayıtmaq istəməyib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib.***

Deputatın sözlərinə görə, xanım Merkelin son səfərinin Azərbaycanı seçməsi Cənubi Qafqazla gələcək əməkdaşlıqda Almaniyanın Azərbaycana üstünlük verdiyini göstərir: "Angela Merkel Azərbaycana qoyduğu ilk qədəmlərindən gördü ki, Azərbaycan heç də Avropadan geridə qalan ölkə deyil. İnfrastrukturunun müasirliyi, şəhərin gözəlliyi, iqtisadiyyatımızın son 15 ildə 3 dəfədən çox artması, ölkədə iqtisadiyyatın diversifikasiya siyasətinin yeridilməsi, Avropanın enerji təhlükəsizliyin təminatında artan rolumuz, bütün bunlar Almaniya Azərbaycan strateji əməkdaşlığında əsas yer tutur". A. Badamov bildirib ki, almanlar harada və kiminlə iş görmək lazım olduğunu yaxşı anlayır: "Almaniya dünyanın aparıcı iqtisadiyyatına malik ölkədir. Bu gün Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin ilbəil artması və qeyri-neft sektorunda icra olunan layihələr alman iş adamlarının Azərbaycana marağını artırır. Almaniya iqtisadi maraqlarını daha geniş şəkildə Azərbaycanda təmin etmək üçün ölkəmizin ərazi bütövlüyünün və siyasi sabitliyinin təmin olunmasında maraqlıdır. Bu gün Almaniyanın 150-dən çox şirkəti Azərbaycanda fəaliyyət göstərir və məhz dövlət büdcəsindən maliyyələşən layihələrin 1 milyard dollardan çox hissəsinin Alman şirkətlərinin payına düşməsi ölkələrimiz arasında gələcək əməkdaşlığın genişləndirilməsinə əsas verir". Deputat əlavə edib ki, səfər çərçivəsində Federal Kanslerin biznes adamları ilə görüşməsi və gələcək fəaliyyətlərinə tövsiyələrin verilməsi onu deməyə imkan verir ki, Azərbaycan Almaniya üçün maraqlı ölkədir və bu əlaqələr ölkəmizin Avropa İttifaqına inteqrasiya prosesinin sürətlənməsinə, genişlənən ikitərəfli strateji əməkdaşlıq əlaqələrinə xüsusi təkan verəcək.

**Nailə Məhərrəmova**

# "Mənəvi dəyərlərin təbliği mərkəzi: Azərbaycan ailəsi"




***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Dubai International" hotelində "Mənəvi dəyərlərin təbliği mərkəzi: Azərbaycan ailəsi" adlı konfrans keçirildi.***

İlk olaraq Dövlət himni səsləndirildi. Konfransı giriş sözü ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktor müavini Ceyhun Əliyev açaraq, əvvəlcə fondun fəaliyyət istiqamətləri haqqında iştirakçılara məlumat verdi. Ailənin cəmiyyətin inkişafındakı mühüm rolundan danışan C.Əliyev ailə dəyərlərinin hər zaman xalqımızın milli düşüncəsində ən yüksək yer tutduğunu bildirdi. Ailənin cəmiyyətin inkişafında mühüm rol oynadığını vurğulayaraq, hər zaman ölkəmizdə ailənin qurulmasına mühüm hadisə kimi yanaşıldığını, onun təməlinin möhkəm olması istiqamətində ciddi addımlar atıldığını söylədi.



Bir insanın formalaşmasında genetik, mühit, ailə kimi faktorların mövcudluğunu vurğuladı. Müasir cəmiyyətimizdə müəyyən qədər boşanma hallarına da rast gəlindiyini, lakin bunun qlobal təhlükəyə çevrilmədiyini bildirən C.Əliyev qeyd etdi ki, hər bir insan öz ailəsinin sağlam, mənəvi cəhətdən güclü olmasına çalışsa, cəmiyyətimiz də güclü və sağlam olar.

Konfransda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova "Ailə münasibətlərinin hüquqi tənzimi" mövzusunda məruzə ilə çıxış edərək, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə nəzər saldı və bunun cəmiyyətimizdə sağlam ailənin formalaşmasında əhəmiyyətinə diqqəti çəkdi. O, bildirdi ki, ailələrdə bir sıra xoşagəlməz nəticələr baş verməzdən əvvəl, ilk növbədə, ailənin hüquqi tənzimlənməsinə diqqət yetirilməlidir. Ölkəmizdə ailə məsələlərini tənzimləyən hüquqi bazanın olduğunu bildirən T.İbrahimova ailənin möhkəmləndirilməsində zəruri olan amillərə nəzər saldı. Ailə Məcəlləsində və ailə məsələlərində qeyd olunduğu kimi, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyini, ailə üzvlərinin hüquqlarının heç bir maneə olmadan həyata keçirilməsindən danışdı.

Tədbirdə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov "Ailə və din" mövzusunda məruzə ilə çıxış edərək, cəmiyyətin formalaşması və inkişafında ailənin mühüm vasitə olduğunu qeyd etdi. Bildirdi ki, fiziki və mənəvi baxımdan sağlam ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Din və ailə münasibətlərindən, onların Azərbaycan cəmiyyətindəki rolundan danışaraq, vurğuladı ki, qloballaşma, informasiya texnologiyalarının inkişaf etdiyi cəmiyyətdə yaşadığımız dövrdə Azərbaycan ailəsi öz dəyərlərini qorumalıdır. Gənclər arasında milli-mənəvi dəyərlərin təbliğinin daha da gücləndirilməsi, gənc nəslin ailə ənənələrinə hörmətlə yanaşmasının vacibliyinə diqqət çəkdi.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin informasiya və analitik araşdırmalar şöbəsinin müdir müavini Aynur Veysəlova "Qloballaşma və ailə", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Regional Mərkəzlərlə iş şöbəsinin baş məsləhətçisi Zülfiyyə Sadıqova "Ailənin psixoloji iqlimi", AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Zeynəddin Şabanov "Azərbaycan ailəsində gender bərabərliyi" mövzusunuda məruzələrlə çıxış etdilər. Qeyd olundu ki, hər bir fərd ailədə formalaşır və uşaqların sağlam düşüncəli, valideynlərə, böyüklərə sevgi və ehtiram, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda yetişməsində ailənin rolu çox böyükdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan Xalq Cümhuriyyəti dövründə multikultural və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı həyata keçirilən dövlət siyasəti"

## *YAP Pirallahı rayon təşkilatı bu mövzuda dəyirmi masa keçirib*

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının inzibati binasında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar keçirilən silsilə tədbirləri çərçivəsində "Azərbaycan Xalq Cümhuriyyəti dövründə multikultural və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı həyata keçirilən dövlət siyasəti" mövzusunda dəyirmi masa keçirilib.***




Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin respublikada dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında Sərəncam imzaladığını xatırladıb. Dövlət başçısının bu Sərəncamında bir daha müasir müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını, Şərqin ilk demokratik müsəlman dövlətinin fəaliyyətinin əks olunduğunun təsdiqidir. "1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olub" deyə qeyd edən YAP Pirallahı rayon təşkilatının sədri, eyni zamanda, vurğulayıb ki, Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir: "Tarixi ənənələrə nəzər salsaq, görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilib".

Tədbirdə çıxış edən YAP Pirallahı rayon təşkilatı aparatının məsul əməkdaşı Günel Məmmədova və 186 №-li orta məktəbin tarix müəllimi Yaqub Hüseynov bildirdilər ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda və sənədlərdə yaşayır.

Daha sonra tədbir iştirakçıları Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirilən dövlət siyasətinə həsr olunmuş videoçarxa baxıblar. Videoçarxın nümayişindən sonra dəyirmi masa mövzu ətrafında fikir mübadilələri, maraqlı diskussiya və müzakirələrlə yekunlaşdırılıb.

***R.RƏSULOV***

# Gürcüstan öz ərazisi ilə Rusiyadan Ermənistana buğda tədarükünü məhdudlaşdırır

Sentyabrın 1-dən Gürcüstan öz ərazisi ilə Rusiyadan Ermənistana quru yolla buğda tədarükünü qadağan edəcək. Trend-in Ermənistan KİV-ə istinadən məlumatına görə, məhsulun daşınması yalnız Poti limanından mümkün olacaq. Yük daşımaları şirkətləri artıq mümkün riskləri ifadə edir və problemin operativ həllini gözləmirlər. KİV-in məlumatına görə, Rusiyadan Ermənistana buğda idxalı hava şəraitindən asılı olaraq, yalnız dəniz vasitəsilə mümkün olacaq. Bu da öz növbəsində, inflyasiyaya gətirib çıxaracaq: buğdanın bir tonunun qiyməti 50 dollara qədər artacaq. Nəticədə, kütləvi informasiya vasitələrinin qeyd etdiyi kimi, bir çox kiçik sahibkarlar işsiz qalacaqlar.



# Avropalı ekspert: "Almaniya Kanslerinin Azərbaycana səfəri iki ölkə arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq"

Almaniya Kansleri Angela Merkelin Azərbaycana və ümumilikdə regiona səfəri Avropanın Cənubi Qafqaz ölkələri ilə tərəfdaşlıq münasibətlərini möhkəmləndirməyə maraqlı olduğunu göstərir. Bunu Trend-ə iqtisadiyyat üzrə ekspert İqor Tsaraniç deyib. Ekspert bildirib ki, Almaniya regionun aparıcı və inkişaf edən ölkəsi kimi Azərbaycanla ticari-iqtisadi əlaqələrin möhkəmləndirilməsində maraqlıdır.

O qeyd edib ki, Almaniya bir çox digər Avropa ölkələri kimi Azərbaycan tərəfindən reallaşdırılan böyük enerji layihələrinin həyata keçirilməsini dəstəkləyir: "Hesab edirəm ki, Almaniya Kanslerinin Azərbaycana səfəri çərçivəsində Avropaya qaz tədarükü ilə bağlı qarşılıqlı əməkdaşlığın, o cümlədən enerji sahəsində gələcək fəaliyyətin mühüm aspektləri müzakirə olunub. Azərbaycan özünü Avropanın enerji təhlükəsizliyinin təminatçısı olduğunu bəyan edib və bu fakt Avropanın aparıcı ölkəsi kimi Almaniya üçün də vacib və dəyərlidir". Ekspert əlavə edib ki, Almaniya ilə Azərbaycan arasında, həmçinin sahibkarlıq sahəsində ticari-iqtisadi əlaqələr qurulub. İ.Tsaraniç deyib ki, Almaniya Kanslerinin Azərbaycana səfəri Bakı ilə Berlin arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq.

# Məhsul istehsalı artıb

*"2018-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən işçilərin orta aylıq nominal əmək haqqının səviyyəsi 1,6 faiz artaraq, 789,3 manat olmuşdur"*

***"2018-ci ilin yanvar-iyul aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz azalaraq, 24,1 milyard manat təşkil etmişdir. Sənaye məhsulunun 82,6 faizi mədənçıxarma, 15,5 faizi emal, 1,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.***



Sənayedə qeyri-dövlət sektorunun payı 84,7 faiz olmuşdur. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 89,8 faiz, xidmətlərin göstərilməsi isə 10,2 faiz təşkil etmişdir". Bu barədə "Səs" qəzetinə açıqlamasında Bakı Şəhəri Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, istehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 avqust 2018-ci il vəziyyətinə 204,7 milyon manatlıq hazır məhsul ehtiyatı olmuşdur".

Məlumatda o da bildirilir ki, 2018-ci ilin yanvar-iyul aylarında Bakı şəhərində Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" oteli, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı istifadəyə verilmişdir.

Məhsul istehsalında da nəticələri qənaətbəxş hesab etmək olar: "2018-ci ilin yanvar-iyul aylarında ticarət dövriyyəsinin həcmi 2017-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 3 faiz artaraq, 10941,8 milyon manat olmuşdur. Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz artaraq, 4942,7 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 3 faiz artaraq, 5999,1 milyon manata bərabər olmuşdur. İstehlak məhsullarının 23,7 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 62,8 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 13,5 faizi isə paytaxtın məhsul bazarlarında satılmışdır".

Əmək haqlarının ödənilməsi sahəsində ciddi irəliləyişlərə nail olunduğu bildirilən məlumatda, o da qeyd olunur ki, 2018-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən işçilərin orta aylıq nominal əmək haqqının səviyyəsi 1,6 faiz artaraq, 789,3 manat olmuşdur: "Ən yüksək orta aylıq əmək haqqı sənaye, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, tikinti fəaliyyəti göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə, ən aşağı əmək haqqı isə səhiyyə və sosial xidmətlər, kənd təsərrüfatı, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, təhsil, istirahət, əyləncə və incəsənət sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə olmuşdur".

**QİSMƏT İSMAYILOV**

***Son illər respublikamızda turizm sahəsində əldə olunan nailiyyətlər dövlət siyasətinin uğurla həyata keçirilməsi zəminindən baş verir. Ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülməkdədir.***

Görülən kompleks işlərin nəticəsi olaraq, ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Xarici dövlətlərdə Azərbaycanın müxtəlif və zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış olurlar. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycanda müalicəvi-sağlamlıq



# Dünyada bənzəri olmayan Naftalan nefti turistlərin diqqətini cəlb edir

turizmi turistləri ölkəmizə daha çox cəlb edir. Ölkədə müalicə-sağlamlıq turizminin inkişafı üçün, təbii ehtiyatlar baxımından, hər şey var. Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıqları və suları, Lənkəranın, Gədəbəyin mineral suları. Azərbaycanın ərazisi planetimizin palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik regionudur. Məlum olduğu kimi, Yer kürəsində olan 600-dən çox palçıq vulkanlarından 300-dən artığı Şərqi Azərbaycanın quru hissəsində və ona birləşən Xəzərin akvatoriyasında yerləşir. Təsadüfi deyil ki, Azərbaycan palçıq vulkanlarının vətəni sayılır. Palçıq vulkanları, əsasən, Abşeron yarımadasında, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelağında yerləşir. Yalnız Qobustanda 100-dən çox palçıq vulkanı var. Müasir dövrümüzdə dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar salınır. Bu ölkələr rekreasiya əhəmiyyətli resurslarından bacarıqla istifadə edərək, milyonlarla gəlir əldə edirlər. Təkcə dünyada kurort zonası kimi tanınan Krıma diqqət etsək, görərik ki, bu məkanda 240- dan artıq müalicəvi kurortlar fəaliyyətdədir ki, hər il yüzlərlə insan müalicə olunmaq məqsədi ilə buraya üz tuturlar. Azərbaycanın da təbii imkanları, kurort zonaları ölkənin turizm bazasına lazımi qədər gəlir gətirmək imkanındadır. Ölkəmizin turizm imkanları dünya mətbuatının diqqətindən kənarda qalmır. "Euronews" telekanalında "Postcards" verilişində Naftalan neftindən bəhs edən reportajda dünyada bənzəri olmayan bir müalicə üsuluna malik Naftalan neftindən bəhs edilib. Bakının 320 kilometrliyində yerləşən Naftalandakı bu möcüzəli yağın dəri xəstəlikləri, revmatizm, qan dövranı və s. müalicəsi üçün şəfa mənbəyi olduğu diqqətə çatdırılıb. Məşhur aparıcı Serxio Kantone reportajında Naftalan şəhərinin turizm sahəsində geniş təcrübəsi və dünyada bənzəri olmayan bu neftlə müalicə üsulları barədə məlumat verib.

Müəllif, onu da diqqətə çatdırıb ki, burada təyin edilən müalicə müddətində xəstələr hər gün 10 dəqiqə neft vannası qəbul edirlər. Bu vannalar bir çox xroniki xəstəliklərin müalicəsində də müsbət təsirə malikdir. Həqiqətən də, təbiətdə analoqu olmayan bu neftdən 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Keçmiş SSRİ dönəmində Naftalan İttifaqın məşhur kurortları arasında müalicə-sağlamlıq əmsalının yüksəkliyi ilə ön sırada olub.

Bütün bunlar göstərir ki, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada tanıda bilib.

**Zümrüd BAYRAMOVA**

# Ermənistanda hakimiyyət uğurunda savaş qızışır

*"Paşinyan özü bir ağıl sahibi olmadığı üçün bilmir kimə xidmət etsin"*

***Xaos və anarxiya girdabında olan işğalçı Ermənistan, həm də ağır iqtisadi böhranla üzləşməklə müstəqilliyini tamamilə itirmək problemi ilə üzləşib. Eyni zamanda, bu yarımdövlət hərbi sahədə də iflasa uğrayıb. Ermənistan analitikləri, eləcə də, mətbuatı yazır ki, hökumətin başı hakimiyyət davasına qarışdığı bir vaxtda orduda xaos hökm sürür. Narkoman zabitlər, müəmmalı əsgər ölümləri adi hala çevrilib. Ermənistan ordusunda qeyri-döyüş şəraitində ölən əsgərlərin anaları isə baş nazir Nikol Paşinyandan onların övladlarının ölümünün əsl səbəblərini araşdırmağı tələb edirlər.***

Paşinyan isə, hələ ki, rəqiblərini zərərsizləşdirməklə məşğuldur. Ermənistanda Paşinyana qarşı Koçaryanın dəstəsi böyük kampaniyaya başlayıb. Söhbət etdiyimiz müsahiblərimiz bunun nəticə etibarı ilə Ermənistanda növbəti iğtişaşların, qarşıdurmaların və nəhayətdə, dövlət çevrilişlərin yaranmasına gətirib çıxara biləcəyini qeyd etdilər.

Millət vəkili Eldəniz Səlimov:
**"Ermənistanda növbəti çevriliş baş verəcək"**



- Ermənistanda Paşinyanı hakimiyyətə gətirən qüvvələrin tələbi ilə Koçaryanın həbs olunması bəzi qüvvələri qıcıqlandırdı. Məcbur etdilər ki, Koçaryanı azad etsinlər, buna da nail oldular. Paşinyan özü bir ağıl sahibi olmadığı üçün bilmir kimə xidmət etsin. Bəzən Rusiyaya qarşı fikirlər səsləndirir. Ermənistanda baş verən qarşıdurmaların nəticə etibarı ilə uzun çəkəcəyi görünür. Bu gün Ermənistanda hakimiyyətdə nə olan Paşinyan, nə də Sarkisyan elə ağıl sahibi deyillər ki, münaqişə sülhlə başa çatsın. Hər iki tərəf iddia ilə çıxış edir. Burada kənar qüvvələrin də marağı var. Ona görə də, Paşinyan ortaya atılan və əlacı olmayan fiqurdur ki, əlavə zaman qazanmaqdır. Proseslərin gedişatı sübut edir ki, Ermənistanda növbəti çevriliş baş verəcək.

Politoloq Qabil Hüseynli:
**"Paşinyan vahimə içindədir"**

- Ermənistanda qarşıdurma getdikcə artır. Qarşıdurmanın başında duranlar Sarkisyanla Koçaryandır. Demək olar ki, Sarkisyanın güclü partiyası var və parlamentdə çoxluğu qoruyub saxlayır. Koçaryan isə yeni partiya qurur və təşkilatlanır. Koçaryanın ətrafında müəyyən qruplaşmalar, oliqarxların böyük bir hissəsi, hətta Dağlıq Qarabağ ermənilərinin də böyük əksəriyyəti var. Bu, o qədər də kiçik bir güc deyil, Ermənistanın özündə də təşkilatlanma aparılsa, böyük bir gücə çevrilə bilərlər. Məhz bu səbəbdən, Paşinyan Merkellə görüşdükdən dərhal sonra böyük bir vahimə içində Dağlıq Qarabağa gəlib və orada ciddi görüşlər keçirməyə başlayıb. Məqsədinin guya orduda müəyyən işlərlə tanışlıq olacağını bildirsə də, əslində, o, qondarma respublikanın



siyasi rəhbərliyi ilə məsləhətləşmələr aparıb. Onların Koçaryana və Sarkisyana qoşulmamaları barədə xəbərdarlıq edir. Yəni Dağlıq Qarabağla bağlı nigarançılıqlarını aradan qaldırmaq üçün orada müəyyən postlara öz adamının gətirilməsi fikrini də nəzərdən keçirir. Bir sözlə, Dağlıq Qarabağın ona arxadan zərbə vurmaması üçün müəyyən siyasi layihələr üzərində fikirləşir. Amma onu demək mümkündür ki, bu saat Paşinyana qarşı müxalifətin əsas ruporu Koçaryandır. Koçaryan dayanmadan televiziyalara, radiolara və saytlara müsahibələr verir. Yəni Koçaryan Paşinyanı hər şeydə, o cümlədən, Amerikanın agenti olmaqda günahlandırır. Bir sözlə, ağlına nə gəlirsə, onların hamısını uydurub deməklə məşğuldur. Bunlar isə erməni xalqını, sözsüz ki, çaş-baş salır. Bütün bunlar Paşinyanın özünü də narahat edir. Bu narahatçılığın səbəbi də onu Dağlıq Qarabağa gətirib çıxarıb. Bir sözlə, üzü payıza doğru elan ediləcək parlament seçkilərinin gərgin olacağı göstərilir. Bu gərginlik, hətta Ermənistanda ciddi qarşıdurmalara aparıb-çıxaracaq.

**GÜLYANƏ**

# Nikol Paşinyan hökuməti dalana sıxışdırılıb



## Respublikaçılarla daşnaklar birləşir, “Sasna srer” isə silaha əl atır













***Ermənistanda davam edən siyasi böhran bu dəfə daha ardıcıl xarakter almağa başlayıb. Belə ki, Nikol Paşinyan hökumətinin ard-arda buraxdığı ciddi səhvlər istər baş naziri, istərsə də onun komandasını dalana sıxışdırıb. Bu barədə müxtəlif erməni KİV-ləri informasiyalarla və siyasi təhlillərlə çıxış edirlər.***

Bu arada, onu da qeyd edə bilərik ki, Paşinyanın, əvvəlcə Robert Koçaryanın azadlığa buraxılması məsələsində gücsüzlüyünü nümayiş etdirməsi, bunun ardınca, KTMT-nin hazırkı baş katibi Yuri Xaçaturovun həbsini reallaşdıra bilməməsi, onun nüfuzunu get-gedə azaltmağa başlayıb. Hətta Paşinyanla birgə küçə qiyamını dəstəkləyən bir qrup tərəfdarı da, onu müxtəlif məsələlərdə ittiham edir, hökumət daxilindən isə istefalara başlanılıb.

### Paşinyanın müşavirinin istefasının əsas tərəfləri bəlli olub

Misal üçün baş nazirin müşaviri Arsen Xaratyan vəzifəsindən istefa verib. Keçmiş müşavir istefa qərarını ailəsinin Gürcüstanın paytaxtı Tbilisidə yaşaması və onlarla az-az görüşməsi ilə əlaqələndirsə də, əsas səbəbin daxili narazılıqlardan doğduğu da vurğulanmaqdadır. Hətta Xaratyanın Yuri Xaşaturovun həbs olunmasında ən barışmaz tərəf olduğunu yazan erməni KİV-ləri, onun bu səbəbə görə, yeni KTMT-nin baş katibinin həbsinin reallaşmamasına görə, Paşinyan komandasını tərk etdiyini yazırlar.

Bu günlərdə Ermənistan XİN-in mətbuat katibi vəzifəsini müvəqqəti icra edən Anna Naqdalyan keçirdiyi brifinqdə Y.Xaçaturovun həbsinin reallaşdırılmasında gücsüz olduqlarını dolayısı ilə etiraf edib. O, bütün qərarların, bilavasitə KTMT-dəki konsensus vasitəsi ilə verildiyini deyib və bu vasitə ilə jurnalistlərin suallarından yayınıb.

Başqa tərəfdən, Azərbaycanın KTMT-yə üzvlüyünün mümkünlüyü ətrafında da çıxılmaz vəziyyətdə olduqlarını sərgiləyən Anna Naqdalyan verilən digər suallara açıq-aydın cavab verməkdən imtina edib.

### Eduard Şarmazanov: “Düşünürəm ki, o, siyasətlə məşğul olacaq və artıq buna başlayıb”

Yeri gəlmişkən, artıq Ermənistanda müxalifət cinahında yer alan siyasi güclər birləşməyə başlayıblar. Məsələn, parlamentdə səs çoxluğuna sahib olan Serj Sarkisyanın Respublika partiyası, eləcə də, parlamentin vitse-spikeri Eduard Şarmazanov, hesab edir ki, ölkənin ikinci prezidenti olmuş Robert Koçaryanın siyasi xadim olduğunu nəzərə alaraq, onunla iş birliyinə gedilə biləcəyi ehtimallarının çox olduğunu bildirib. “Düşünürəm ki, o, siyasətlə məşğul olacaq və artıq buna başlayıb”, deyən erməni spiker əlavə edib ki, Respublika partiyası konsolidə olunmuş siyasi gücdür və Robert Koçaryan da daxil olmaqla, bütün siyasi güclərlə iş birliyinə gedə bilər.

### “Jamanak”: “Babayan daha bir maraqlı qərar qəbul edərək deyib ki, onun yeni yaradılmış “Sasna srer” partiyası ilə əməkdaşlıq etmək marağı var və Koçaryanla da iş birliyi ətrafında gizli danışıqlar aparır”, yazan erməni qəzeti, artıq həmin istiqamətdə real işlərə başlanılıb”

“Jamanak” (“Zaman”-R.R.) qəzeti isə yazır ki, separatçı “DQR”-in sabiq müdafiə naziri Samvel Babayan “Ohanyan, Raffi-Oskanyan” alyansı üçün Yerevanın mərkəzi küçələrindən olan Vardanansda geniş ofis kirayələyib və tezliklə fəal siyasi müzakirələrə başlayacaq. “Babayan daha bir maraqlı qərar qəbul edərək deyib ki, onun yeni yaradılmış “Sasna srer” partiyası ilə əməkdaşlıq etmək marağı var və Koçaryanla da iş birliyi ətrafında gizli danışıqlar aparır”, yazan erməni qəzeti, artıq həmin istiqamətdə real işlərə başlanılıb”.

Xatırlatmaq olar ki, “Sasna srer” hərəkatı hələ Serj Sarkisyan hakimiyyəti dövründə 3 polisin öldürülməsi və bir neçəsinin yaralanması ilə nəticələnən qiyam qaldırmışdı. Bu qurumun üzvləri polis alayını zəbt edərək, silahlı müqavimət göstəriblər. Partiyaya çevrilmiş “Sasna srer” qarşıdan gələn növbədənkənar parlament seçkilərində uduzacaqları halda, yenidən silaha sarılacaqlarını da istisna etmirlər. Beləliklə, fakt budur ki, istər yeni hökumət daxilində, istərsə də hökumətə qarşı müxalifətçilik mövqeyində dayananlar arasında kəskin qarşıdurmalar yaşanmaqdadır. Bütün bunlar isə, küçədən gələn və pafosları ilə utopik xəyallara dalan Paşinyan hakimiyyətinin iflasını, ölkənin isə vətəndaş müharibəsinə doğru sürüklənmə prosesini daha da sürətləndirir.

***Rövşən RƏSULOV***

# Arif Hacılı başqanlıqdan gedə bilər

## *Müsavatda İsa Qəmbərin dayaqları da zəifləyir*

***Müxalifət düşərgəsində bir-birinin ardınca baş verən qalmaqallar son vaxtlar bir qədər də genişlənib. Səbəb də xaricdən verilən qrantların həcminin azalmasıdır. Maliyyə yardımlarının azalması partiya liderlərinin gəlirlərinin də azalmasına gətirib çıxarıb. Artıq iddialı partiya yetkililəri, az da olsa, ayrılan qrantları başqaları ilə bölüşmək fikrində deyillər. Yəni vəsaiti tam şəkildə özləri mənimsəməyə çalışırlar. Bu isə, yeni qarşıdurmalara yol açır.***



Çünki partiya sədrlərinin müavinləri də maliyyə yardımları əldə etmək məsələsində iddialarından əl çəkmək fikrində deyillər. Bu isə, bir növ partiya rəhbərliyi arasında ciddi qarşıdurmaların yaranmasına gətirib çıxarır. Bu, daha çox özünü Müsavat, AXCP, ADP kimi partiyalarda özünü göstərir. Daha doğrusu, sözügedən bu partiyalar daxilində sədrlərə qarşı müavinlər tərəfindən bir birlik nümayiş etdirilir. Birliyin əsas məqsədi sədrləri sıxışdırmaqla onları pay bölgüsündə yalnız özünü düşünməmək prinsipinə əməl edilməsinə məcbur etməkdir. Artıq Müsavatda, AXCP-də müavinlərin, ümumiyyətlə, kollegial orqanlarda təmsil olunan şəxslərin başqana qarşı nümayiş etdirdikləri təsir və təzyiqlər öz nəticəsini verməkdədir.

### Müsavat məclisi başqana etinasızlıq göstərməyə hazırlaşır

Müsavat başqanının müavini Səxavət Soltanlı avqustun 24-də keçirilən məclisin toplantısında açıq şəkildə keçmiş müavin Fəttah Heydəri Arif Hacılıya qarşı irəli sürdüyü ittihamlara görə haqq qazandırıb. Bildirib ki, həqiqətən də, Arif Hacılının idarəetmə prinsipləri partiya nizamnaməsinin kobud şəkildə pozulması ilə müşahidə olunur. S.Soltanlı A.Hacılıdan narazı qalmasını maliyyə məsələləri ilə bağlı olduğunu gizlətməyə çalışsa da, başqanın qardaşı Mustafa Hacılı üzüdönüklüyün səbəbini müavinin gəlirinin bir qədər azalmasına işarə vuran fikirlər səsləndirib. Hətta M.Hacılı S.Soltanlının partiyadan uzaqlaşdırıla biləcəyinə dair eyham da vurub. Amma proseslərin inkişafı və Müsavat daxilində baş verən hadisələr, onu deməyə əsas verir ki, M.Hacılının S.Soltanlını hədələməsi effektsiz alınacaq. Çünki artıq Müsavat daxilində, nəinki A.Hacılının, ümumiyyətlə, Müsavatın keçmiş başqanı İ.Qəmbərin, mövqeləri tamamilə zəifləyib. Artıq əsas rolda Gülağa Aslanlı, Osman Kazımov, Səxavət Soltanlı və digərləri çıxış edirlər. Yayılan məlumatlara görə, A.Hacılının Müsavat daxilində mövqeləri o dərəcədə zəifləyib ki, artıq partiyada başqanın qərarları icra edilmir. Öz funksiyasını yerinə yetirmək və ya nizamnamə tələblərinə əməl etmək kollegial orqanlar üçün mənasız və əhəmiyyətsiz görünür. Bu isə, A.Hacılının partiyanın qurultayına qədər başqanlıqdan gedə biləcəyi ehtimallarını yaradır. Ehtimalları Müsavat məclisinin növbəti toplantısında, A.Hacılının səhvlərinin nəticəsi olaraq, kütləvi istefaların baş verməsi ilə bağlı məsələ müzakirə olunacaq. Bu müzakirələr zamanı A.Hacılıya xəbərdarlıq, ən pis halda isə, məclisin etimadsızlığı barədə qərarı qəbul edilə bilər.

### AXCP-də Əli Kərimliyə qarşı inamsızlıq hökm sürür

Müsavatla yanaşı, AXCP-də də sədrə qarşı yetkililərin münasibəti A.Hacılıya qarşı Səxavət Soltanlı kimilərin münasibətindən heç də fərqlənmir. Hətta bir qədər araşdırma aparılsa, Ə.Kərimliyə qarşı nifrət hissinin daha dərin olduğunu görmək olur. Bunun da səbəbi Ə.Kərimlinin xaricdən verilən maliyyə yardımlarını özü tək yeməklə yanaşı, partiya üzvlərinə yuxarıdan aşağı baxmasıdır. Onun yalan vədlərinə aldanıb, icazəsiz aksiyalar zamanı həbs edilənlərin taleyi ilə maraqlanmaması partiyadaxili müxalif durumun daha da genişlənməsinə təkan verib. Partiya yetkililəri, hesab edirlər ki, Ə.Kərimli Böyük Britaniyada kef məclislərində tüfeyli həyat tərzi keçirən oğlu Türkel Kərimliyə 100 min manatlarla vəsait xərclədiyi halda, AXCP-nin həbsdə olan Fuad Qəhrəmanlı, Seymur Həziyev, Gözəl Bayramlı və digər cəbhəçi fəallarla bağlı heç bir tədbir görmür və ya maliyyə yardımı göstərmir. Halbuki həbsdə olan AXCP yetkililərinin ailələrinə çatdırılması üçün, yalnız 2017-ci ildə 55 min avro SOROS fondu tərəfindən maliyyə yardımı ayrılmışdır. Ancaq Ə.Kərimli həmin vəsaiti mənimsəyib. Xatırlamaq lazımdır ki, "Azadlıq" qəzetinin köşə yazarı olmuş Mirzə Sakit də bir zaman mətbuatda çıxış edərək, bildirmişdi ki, həbsdə olduğu zaman ona çatdırılması olan 10 min avronu Ə.Kərimli mənimsəmişdi. Bir sözlə, Ə.Kərimlinin maliyyə vəsaitlərini mənimsəməsi partiya daxilində ciddi konfliktlərə səbəb olub. Məhz bu səbəb istər rayon təşkilatları tərəfindən, istərsə də partiyanın rəhbər strukturlarının təmsilçilərində Ə.Kərimliyə qarşı nifrət və qəzəb hissinin yayılmasına gətirib çıxarıb. Söz yox ki, bu cür mənfi münasibət Ə.Kərimliyə yaxşı heç nə vəd etmir. Əgər partiyanın növbəti qurultayı keçirilsə, aşağılar və yuxarılar birləşərək, Ə.Kərimlini tarixin zibilliyinə atacaqlar.

**İ.ƏLİYEV**

# ADP sədri yenidən Müsavatı hədəfə alıb

## *Sərdar Cəlaloğlu: "İsa Qəmbərin yanlış mövqeyi Müsavatın dağılmasına səbəb oldu"*

***"Müsavat partiyasında, proseslər elə cərəyan edir ki, artıq onu tənzimləmək çətindir. Yalnız hərəkətsizliklə partiya daxilində sakitlik yaratmaq olar. Yəni bataqlığa düşən çabalamamalıdır". Bunu Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu Müsavat partiyasında davam edən qarşıdurmaların səbəblərini izah edərkən deyib. Xüsusilə, Arif Hacılının rəhbərlikdən uzaq şəxs olduğunu iddia edən müxalifətçi partiya sədrinin sözlərinə görə, əgər hər hansı partiya daxilində ziddiyyətli məqamlar yaranırsa, tərəflər aktiv addımlar atmalıdırlar.***

### "Müsavatda əllərində imkan olanlar etiraz edənləri təşkilat sıralarından azad edirlər"

Belə ki, qarşıduran tərəflərin fəallıqları siyasi təşkilatın parçalanması reallığını daha da artırır: "Müsavatda əllərində imkan olanlar etiraz edənləri təşkilat sıralarından azad edirlər. Qarşı tərəf isə, buna etiraz olaraq, aksiya keçirir və öz tərəfdarlarını partiyadan çıxarmağa çalışır. Bununla da, partiya dağılır". S.Cəlaloğlu, onu da qeyd edib ki, psixoloji sakitləşmə getdikdən sonra bütün problemləri həll etmək mümkün idi. Lakin sabiq başqan İsa Qəmbər öz postunu Hacılıya verəndən sonra, o,



gizli şəkildə ona öz təlimatlarını verməkdə davam edib: "Çox təəssüflər olsun ki, İsa Qəmbər də qəti mövqe tutaraq, çox aktiv hərəkətlərə imza atdı. Bu da partiyanın qarşısıalınmaz bir tərzdə dağılmasına gətirib çıxardı".

Beləliklə, Müsavat partiyasının özünün müxalifət düşərgəsindəki əvvəlki gücünü bərpa edə bilməyəcəyini də iddia edən ADP sədrinə görə, bu gün partiyadan gedənlərin sonradan siyasi təşkilat sıralarına yenidən qayıdacaqları halda da, Müsavat əvvəlki müxalifətdaxili gücünü geri qaytarmağa müyəssər olmayacaq: "Hətta partiyadan çıxarılan və istefa verən simalar bir araya gətirilsələr də, Müsavat əvvəlki gücündə olmayacaq. Yəni yamaqlı olacaq".

### Mustafa Hacıbəyli: "Təhqir olunmuş şəxs niyə özünü təhqir olunmuş hesab edir?"

Söz yox ki, ADP sədrinin haqlı ittihamları Müsavat rəhbərliyinin xoşuna getməyib və dərhal cavab verilib. Bu kimi məsələlərdə daim ortaya atılan Müsavat partiyası məclisinin üzvü, başqan müşaviri, eyni zamanda, A.Hacılının qardaşı Mustafa Hacıbəyli ADP sədri S.Cəlaloğlunu təhqir olunmuş şəxs hesab etdiyini bildirib: "Sərdar Cəlaloğlunun fikirləri özünə aiddir. Çünki sual yaranır ki, təhqir olunmuş şəxs niyə özünü təhqir olunmuş hesab edir?"

Müsavat rəsmisinin sözlərinə görə, əgər S.Cəlaloğlu, həqiqətən də, özünü təhqir olunmuş hesab edirsə, onda müxalifətçilik adından birdəfəlik imtina etsin: "Əgər belədirsə, onda görüşlərini müxalifətlə deyil, iqtidarla keçirsin. Çünki onun özü də əvvəllər belə bir təşəbbüs ilə çıxış etmişdi ki, hakim partiya ilə görüşməyə hazıram".

Göründüyü kimi, haqlı ittihamları həzm edə bilməyən müsavatçılar son anda söz tapa bilməyəndə, dərhal digər müxalifət partiyalarını hakimiyyətlə iş birliyinə getdiklərini iddia edirlər. Bu kimi sərsəm iddialar isə, artıq köhnəlib və heç bir işə yaramır.

**Rövşən NURƏDDİNOĞLU**



**Təhmasib Novruzov**

# "Kim nə deyər bizdə olan qeyrətə?"

***Bütün demokratik cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da fərqli siyasi baxışları olan müxalifət var. Bu müxalifət düşərgəsi siyasi hakimiyyət uğrunda mübarizə aparır. Fərq ondadır ki, inkişaf etmiş başqa ölkələrdəki müxalifət dəstəyini xalqda axtarır, bizim müxalifət isə xaricdən dəstək alır və bu dəstəyə o qədər güvənir ki, xalq da, onun problemləri də vecinə deyil.***

***Bu günlərdə Almaniyanın Federal Kansleri, xanım Angela Merkelin Azərbaycana səfəri ərəfəsində də, bunun şahidi olduq. Almaniya Avropanın ən önəmli ölkələrindəndir.***

Bu ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Minsk Qrupunun da üzvüdür. Yəni problemin çözülməsində ciddi rol oynaya biləcək bir ölkənin hökumət başçısı təşrif buyurmuşdu ölkəmizə. Həm də, o ölkənin ki, vaxtilə Minsk Qrupunun həmsədr institutu yaranarkən, həmsədrlərdən biri olmağa can atırdı və deməli, bu problemin çözülməsində maraqlı dövlətdir. Gözlənilən o idi ki, bizim iqtidarla yanaşı, müxalifət düşərgəmiz də, vətəndaş cəmiyyəti nümayəndələrimiz də, bu səfər zamanı, Dağlıq Qarabağ problemi ilə bağlı bəyanatlar səsləndirəcək, Almaniya rəhbərliyindən problemin ədalətli həllinə dəstək verilməsi istəniləcək. Amma harada? Bizim bəzi-bəzi vətəndaş cəmiyyəti fəallarımız bir-iki jurnalistin həbsinin siyasi mahiyyət daşımasını iddia edən tələblərindən başqa, konstruktiv bir təşəbbüsün şahidi olmadıq. Olmaya, bu qüvvələr üçün problem çözülüb! Ya da onlar bu ölkənin vətəndaşı adını, sadəcə, kimliklərində daşıyırlar, əslində isə, mənəvi baxımdan, bu ölkədən uzaqlaşıblar! Başqalarını deyə bilmərəm, amma mənim üçün belə mühüm məqamda susub, milli problemlərlə bağlı heç bir addım atmayan müxalifətin də, yaxud bir-iki nəfərin həbsindən "narahat" olub, onu qloballaşdıran, Vətənin bir parçasının işğalını, bir milyon insanın yurd-yuvasız qalmasını qulaqardına vuran vətəndaş cəmiyyəti nümayəndələrinin də sərgilədikləri mövqe istənilən baxış bucağından, yumşaq desək, bağışlanmazdır. Qəribədir, bu adamlar necə özlərinə sığışdırdılar ki, ölkənin bu qədər ciddi problemini bir yana qoyub, cılız, siyasi maraqlara xidmət edən tələblərini xanım Merkelə çatdırmaq üçün dəridən-qabıqdan çıxırdılar? Belədə, qonaq xanım düşünməzmi ki, bu ölkənin vətəndaşları üçün Dağlıq Qarabağ problemi önəmli deyil, onu bir kənara qoyub, məhz insan haqları adı altında kimlərinsə siyasiləşdirməyə çalışdığı bir-iki nəfərin azadlığı məsələsini gündəmə gətirsin? Necə ki, bunun şahidi də olduq. Bir sual verən gərəkdir ki, ay Avropanın ən güclü ölkəsinin ən güclü lideri, bizim müxalifətçi siyasilərimizin ağlı kəsmir-kəsməsin, siz özünüzə necə sığışdırırsınız ki, əhalisinin onda birini yurd-yuvasından didərgin salan Ermənistan adlanan qondarma bir ölkədə insan hüquqları mövzusunda danışmırsınız, amma gəlib Azərbaycanda bir-iki məhbusun siyasiləşdirilmiş hüququnu müdafiəyə qalxırsınız? Yoxsa Qarabağda, dədə-baba yurdunda yaşamaq kimi adi insan hüquqlarından məhrum edilmiş bir milyon insanın hüququ beynəlxalq normalarda adi haldır? Bu, sadəcə, ikili standart deyil, bu, ermənipərəstliyin aşkar təzahürüdür və nə yazıqlar ki, bu "pərəstlik" təkcə Almaniya siyasilərinə aid deyil!.. Amma əslində, nə Almaniyanın, nə ABŞ-ın, nə Fransanın və digər dünyaya haqq-ədalət dərsi keçənlərin siyasilərini qınamağa da dəyməz. Bir ölkənin siyasi müxalifətinin, aparıcı vətəndaş cəmiyyəti nümayəndələrinin arxa plana keçirdiyi bir problemlə nə səbəbə özlərini narahat etsinlər? Axı yaxın tariximizdə dəfələrlə şahidi olmuşuq ki, ölkəmizin ümumi problemində müxalifətçilik bir kənara qoyulur və problemlə bağlı vahid mövqe sərgilənir. Bizdə isə özləri problemi unutduqları yetməz kimi, dünya dövlətlərinin də diqqətini cılız problemlərə cəlb etməklə, onlar üçün də problemin üstündən sükutla keçmələrinə şərait yaradırlar. Allah Mirzə Ələkbər Sabirə rəhmət eləsin, "Kim nə deyər bizdə olan qeyrətə, qeyrətimiz bəllidi hər millətə!.."

# Ailə dəyərləri və qadın hüquqları

***Bəşəriyyətin sosial orqanizminin əsas tərkib hissəsi olan ailə, minilliklərlə maddi və mənəvi dəyərləri, ənənələri, mənsub olduqları millətlərin mədəniyyətini nəsildən-nəslə ötürərək yaşadıb. Lakin son dövrlərdə ailə dəyərlərinin aşağı düşməsi son dövrlərin ən aktual və dərin probleminə çevrilmişdir. Əsrlərdən- əsrlərə keçərək möhkəmlənmiş, bərkimiş, lakin son dövrlərdə böhran vəziyyətini yaşayan ailə institutunun bu vəziyyətə düşməsinin əsas səbəbi nədədir?***

Bu suallara birmənalı cavab vermək mümkün deyil. Bu sahədə tədqiqat aparan müasir tədqiqatçılar problemin həllinə cavab tapa bilmirlər. Lakin bütün tədqiqatçılar problemin əsas səbəbi kimi sosial-iqtisadi durumu deyil, müasir dövrdə dəyərlərin və mənəviyyatın əsaslı şəkildə dəyişməsini, mənəvi dezorientasiyanı və nəticədə, nəsillərdən-nəsillərə vərəsəlik prinsipi əsasında çatmış milli-mənəvi dəyərlərin böhranını göstərirlər. Bu böhran nəticəsində, insan özü də dərk etmədən mənəvi boşluq vəziyyətinə düşür, mənəvi tənəzzül yaşayır və yaşamının mahiyyətini itirir. Bu zaman insanın ağlına “mən kiməm və kiminlə yaşayıram? mən niyə bununla yaşayıram? Bu, mənim tayımdırmı?” sualları gəlir və “həyat bir dəfə verilir, gör mən onu kiminlə itirirəm”, “taylı-tayın tapmasa, günü ah-vayla keçər” (atalar sözü) deyib, sonrakı həyatının müqəddəratını azad şəkildə həll etməyə çalışır.

Fəlsəfə elmləri doktoru Ziba Ağayeva yazır: “Eyni zamanda, göstərmək lazımdır ki, dünyada ailə böhranının əsas səbəbi sayılan milli-mənəvi dəyərlərin böhranının dərinləşməsi prosesinin daha da sürətlənməsinə müasir dövrdə geniş vüsət almış feminizm çağırışları: kişi-qadın bərabərliyi, cinslərarası bərabərlik, komplekslər, ideal axtarışı və ambisiyalı qadınların, yeni karyera dalınca qaçan qadınların nikahdan azad yaşamaq iddiaları, kişi və qadın arasında rəsmi nikahın olmaması, ailəyə görə məsuliyyət hissinin azalması, nikahdan kənar birgə yaşayış, nikahdan kənar uşaqların doğulması hallarının çoxalması, yeni ailə modellərinin yaranması, homoseksual ailələr, yalnız analardan ibarət ailələr və s. öz təsirini göstərir.

Bütün dünyada bu tendensiya yüksələn xətt üzrə inkişaf etdiyindən, boşanma halları dəfələrlə çoxalmışdır. 2012-ci ilin statistikasına görə birinci, ikinci və üçüncü yerləri keçmiş SSRİ dövlətləri Ukrayna, Rusiya və Belarus tutur. Avropada boşanmanın statistikasına görə boşanmaların aşağı olduğu ölkə İtaliya (davamlılıq müddəti cəmi 17 il), ən çox boşanmaların olduğu ölkə isə Fransa (davamlılıq müddəti cəmi 12,3 il) sayılır. Fransada, İngiltərədə və Almaniyada iki nikahdan orta hesabla biri dağılır. Bu sahədə çempion - Belçikadır. Burda üç ailədən orta hesabla ikisi dağılır. Belçikanı katolik İspaniya və Macarıstan daban-dabana izləyir. Siyahının əks-tərəfində - 19% boşanma ilə İtaliya və Yunanıstan, Rumıniya və Polşa gedir. Göründüyü kimi, vəziyyət heç də ürəkaçan deyil.

Nə qədər paradoks görünsə də, faktlar sübut edir ki, bu problem inkişaf etmiş dövlətlərdə daha kəskin şəkildə durur. Cəmiyyət inkişaf etdikcə, əhalinin sosial vəziyyəti yüksəldikcə, ailə böhranı daha da dərinləşir.

Müasir dünyanın sosial modernləşməsi cəmiyyətdə sosial münasibətlərin, sosial strukturların köklü şəkildə dəyişilməsinə, köhnə sosial institutların dağılmasına səbəb oldu. Bu dəyişikliklər ailə institutundan da yan keçmədi”.

Qərbdə ailə dəyərlərinin böhranından bəhs edən ilahiyyatçı Seyid Musavi Lari yazır: “Qərb ölkələrində mövcud olan intim məsələlər bütün çərçivələrdən kənara çıxmışdır və bu sahədəki əxlaqi pozğunluqlar özünün ən yüksək səviyyəsinə çatmışdır. Aydındır ki, əvvəllər Qərbdə cinsi iffəti əsas əxlaqi dəyərlərdən hesab edirdilər. Lakin bu məsələ tədricən unuduldu və nəhayət, arzuolunmaz bir şəkil aldı.

Qərbdə iffət elə bir şəkildə yaddan çıxmışdır ki, guya o, heç insanın əxlaqi keyfiyyətlərindən hesab olunmur!

Dostlarımdan biri belə deyirdi: “Bir gün alman radiosunda cavan bir qız öz problemlərindən danışaraq, onlardan onun üçün çıxış yolu göstərmələrini xahiş edirdi: “Mən cavan qızam və neçə ildir ki, bir cavan oğlanla ailə qurmadan dostluq əlaqəsi yaradıb, birlikdə yaşayıram. İndi ona qarşı meyilim azalıb, başqa bir oğlana rəğbətim artıb. Mən keçmiş dostumla əlaqələrimi kəsib, təzə tanışımla daimi əlaqə yarada bilərəmmi? Yaxud yeni dostumla ünsiyyətdə ola-ola, keçmiş sevgililmlə də əlaqələrimi saxlaya bilərəmmi? Xahiş edirəm bu işdə mənə yol göstərin!”

Onun cavabında isə “yol göstərən” radio əməkdaşı belə deyir: “Siz 28 yaşına qədər azad surətdə qeyd-şərtsiz bir və ya bir neçə cavanla cinsi yaxınlıq edə bilərsiniz. Buna görə də özünüzü heç bir şübhə və iztiraba salmayın”!

Belə bir məqama diqqət yetirilməlidir ki, əxlaqsızlıq və fahişəlik əsas etibarı ilə vəzifəsi cəmiyyəti mənəvi süqutdan qorumaq olan mərkəzlər vasitəsilə yayılır. Həmin radio, televiziya, qəzet və jurnallar iffət, mənəvi paklıq keyfiyyətlərini təbliğ etmək əvəzinə, pozğunluq və əxlaqsızlığı yaymaqla məşğul olurlar. Bu işdə bir qədər də uzağa gedərək, “yeni” əxlaqi normalar haqqında göstəriş verirlər. Nikahdan qabaq cavanlar arasında “dostluq” münasibətləri adı ilə fahişəliyin yayılmasına yardım edirlər. “Mütləq azadlıq” adı altında əxlaqsızlığı təşviq edib, şərəfsizlik və qeyrətsizliyi adi “insani norma” kimi geniş surətdə təbliğ edirlər. Məşhur sosioloq Vill Dorant yazır: “Şəhərlilərin yaşayış tərzi elə bir şəkil alıb ki, adamı evlənmək haqqında fikirləşməkdən çəkindirir. Cinsi ehtiraslar xalqı məlum rabitələrə sövq edir və qeyri-qanuni əlaqələrin yaranmasına səbəb olur. Qərb mədəniyyəti evlənməyi əhəmiyyətsiz bir məsələyə çevirib. Yaşı otuzu ötmüş çoxlu kişi və qadınlar vardır ki, hələ də ailə sahibi olmamışlar. Bütün bunların nəticəsində bir zamanlar fəzilət və dəyər hesab edilən mənəvi paklıq tamamilə öz əhəmiyyətini itirmişdir.

Əlbəttə, belə bir şəraitdə əvvəllər ən gözəl insani keyfiyyətlərdən sayılan həya, indi tamamilə öz mənasını itirmişdir. Kişilər öz günahlarının sayı ilə fəxr edir, qadınlar isə onlarla bərabər olduqlarını iddia edərək əxlaqsızlıqda kişilərlə yarışırlar. Aydındır ki, belə cəmiyyətlərdə nikah məsələsi heç bir əhəmiyyət kəsb etmir. Küçələrdə fahişələrin sayının azalması, onların polisdən qorxduqları üçün deyil, digər qadınların başqa yerlərdə həmin “vəzifəni” daha geniş şəkildə icra etmələrindən irəli gəlir”.

İnsan fitrəti onu öz qüvvələrinə nəzarət etməyi və bunlardan mötədil şəkildə istifadə olunmasını tələb edir. Küçədə yeriyərkən, təhlükəli yollarla addımlamaq pis nəticələrə səbəb olduğu kimi, fitrətlə müxaliflik etmək də eyni şəkildə mənəviyyat sahəsində böyük faciələrə gətirib çıxarır”.

S.Muvasi Larinin fikrincə, Qərb mədəniyyəti, ümumiyyətlə, şəhvət və cinsi ehtirasların nəzarətsiz formada bəslənməsinə şərait yaradaraq, mütləq azadlığın hakim olmasına icazə verir. Amma nədənsə, indiyədək şəhvətbazların bu mütləq azadlıq şəraitində “doyduqları” gözə çarpmır. Əksinə, cəmiyyətdə psixoloji narahatlıqlar, stress və əsəb xəstəlikləri artmaqdadır.

İsveçdə 20 il ərzində icazə verilən mütləq cinsi azadlıq cavanların dəhşətli faciələrə düçar olduqlarına gətirib çıxartdıqdan sonra, ölkə rəhbərləri çıxış yollarını tapmaq üçün parlamentdə müzakirələrə başladılar. Ölkənin baş naziri açıq şəkildə deyirdi: “Bizə 20 il müddətində buraxdığımız səhvləri düzəltmək üçün 40 il vaxt lazımdır”.

Xalq, Freydin aldadıcı fikirlərinin təsiri altında, öz rəftarında heyvani hisslərə aludə olmuş və cinsi təmayüllər əxlaqdan ayrılmış, iffət aradan getmiş, pozğunçuluq elə bir həddə çatmışdır ki, onun dayandırılmasının mümkünsüzlüyü göz qabağındadır. Aşağıdakı statistik məlumatlar bunu daha aydın göstərir: alman dövləti tərəfindən yayılan məlumatlara əsasən, son illərdə müharibədə qalib gələn dövlətlərin əsgərlərinin alman qadınları ilə qeyri-qanuni cinsi yaxınlıqları nəticəsində, 200 min uşaq doğulmuşdur və hal-hazırda onlar Almaniya dövlətinin himayəsi altındadırlar. Bunların beş mini zənci uşaqlardır. Almanların özlərinin etiraf etdiyi kimi, bu say qeyri-qanuni doğulan uşaqların ümumi miqdarının yalnız onda bir hissəsidir. Çünki adətən, belə hallarda uşaqların böyük əksəriyyəti dünyaya gəlməzdən qabaq məhv edilir. Qeyd edilməlidir ki, bu məlumatlar təkcə Qərbi Almaniyaya aiddir.

Digər Qərb ölkələrindəki vəziyyət heç də Almaniyadan geri qalmır. İngiltərə, Fransa və sair ölkələrdə də oxşar statistika mövcuddur. Məşhur psixoloq Karneqi belə yazır: “Amerikanın statistika idarələrindən birinin apardığı tədqiqadara əsasən, ölkədəki bütün ailələrdə təqribən ərlərin yarısı öz həyat yoldaşlarına xəyanət edir və xəyanət etməyən digər hissəni təşkil edən ərlər isə, heç də iffət üzündən deyil, “fürsət” düşmədiyindən, yaxud imkansızlıqdan bu işi görmürlər, Nyu-Yorkun telefon xətləri yoxlanıldıqda isə, aydın oldu ki, ərli qadınların çoxu öz həyat yoldaşlarına xəyanət edirlər!”

ABŞ-da 650 xəstəxana zöhrəvi xəstəliklərin müalicəsi üçün ixtisaslaşıb. Halbuki bu cür xəstələrin yalnız 1,5 faizi həmin yerlərdə müalicə olunurlar və onların çoxu evlərdə xüsusi həkimlərə müraciət edirlər. Bu ölkədə hər il 30-40 min körpə belə xəstəliklərin təsirindən ölür. ABŞ-da zöhrəvi xəstəliklərdən ölənlərin sayı təbii ölənlərin sayından daha çoxdur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 29 avqust

## Sağaldıcı xüsusiyyətə malik beş ot

İylər hansı problemlərin qarşısını ala bilər?. Hələ qədim zamanlardan insanlar müxtəlif xəstəliklərin müalicəsində efir yağlarından istifadə edirdilər. AZƏRTAC xarici tibb saytlarına istinadla xəbər verir ki, günümüzdə alimlər də bu yağların sağaldıcı xüsusiyyətlərini elmi sübutlarla təsdiqləyirlər.

**Adaçayı**

Adaçayının faydaları hələ antik dövrlərdən insanlara məlum olub. O zamanlar adaçayının istifadəsi Aralıq dənizi sahilləri və



Mərkəzi Asiyada daha geniş yayılmışdı. Belə ki, bu bitki antiseptik xüsusiyyətləri ilə spazmaların aradan qaldırılmasında istifadə edilib və bitkinin müalicəvi xüsusiyyətləri 2013-cü ildə aparılan tədqiqatlarda təsdiq olunub.

Bu bitkinin qoxusu və ondan hazırlanmış çay qadınlara xas qarın ağrıları zamanı kömək edir. Bununla yanaşı adaçayı stressi aradan qaldırır, hafizəni möhkəmləndirir.

Alimlərin fikrincə bu ot orqanizmi təmizləməklə yanaşı, qocalmağa və xərçəngə səbəb olan qeyri sabit molekul-sərbəst radikalların inkişafının qarşısını alan güclü antioksidantdır. Lakin onu da unutmaq olmaz ki, bəzən bir nahiyəyə faydalı olan digər hissəyə zərər verə bilər. Başqa sözlə desək hər bir şey qədərində daha gözəldir. Digər aromatik yağlar kimi adaçayının da müəyyən istifadə qaydaları var. Onu gündə 15-60 dəqiqədən artıq olmamaq şərti ilə qəbul etmək olar. Əks halda bu ot əks təsir göstərə bilər. Bununla yanaşı həkimlər adaçayı qoxusunun hamilələrə məsləhət görmürlər. Belə ki, bu iy ana südünün çəkilməsinə səbəb ola bilər.

**Nanə**

Nanəni hələ qədim Misirdə istifadə etməyə başlamışdılar. Belə ki, burada efir yağlarının istehsalı yüksək səviyyədə idi. Onu da qeyd etmək lazımdır ki, nanə yarpaqları hələ eramızdan əvvəl 1000-ci ildə tikilmiş piramidalarda tapılıb.

Bu gün aparılan çoxsaylı tədqiqatlar sübut edir ki, nanə yağı bağırsağın qıcıqlanma sindromu zamanı yaranan ağrıları aradan qaldırır, mədə-bağırsaq pozuntularının və vərəm iltihabının qarşısını alır. 90 qram nanə cövhəri və 50 qram zirə yağının qarışımının mütəmadi istifadəsi funksional depressiyadan əziyyət çəkən pasiyentlərə müsbət təsir göstərib. Bundan əlavə Boston Universitetində aparılan bəzi tədqiqatlara görə nanə cövhəri yaddaşı möhkəmləndirir.

**Portağal**

Portağal və ondan hazırlanmış yağ stersə dayanıqlılığı artırır. Bu səbəbdən masaj zamanı portağal yağından istifadə edilir. Bitkini tərkibində olan linalool maddəsi isə gərginliyi aradan qaldırır, əsəb və ürək-damar sistemlərini sakitləşdirir. Bəzən sitrus bitkilərinin iyləri baş ağrılarının aradan qaldırılmasında da istifadə olunur.

Portağal essensiyası hətta ağır bağırsaq xəstəliyi olan salmonellyozun fəsadlarının aradan qaldırılmasına da kömək edə bilər. Portağal yağı bakteriyaların inkişafının qarşısını alır və əla antiseptikdir. Bu bitkinin çatışmayan yeganə cəhəti güclü allergen olmasıdır. Mütəxəssislər hər ehtimala qarşı istifadə zamanı portağal yağının digər maddələrlə qarışdırmağı məsləhət görürlər.

**Darçın**

Darçın fikrini toplamaqda çətinlik çəkənlərin köməyinə gələ bilər. Xüsusilə sürücülərin bu bitkidən istifadə itməsi məsləhətdir. Belə ki, darçın iyi sakitləşdirici effekti ilə yanaşı fikri cəmləməyə da kömək edir. Alimlər aparılan tədqiqatların əsasında bildiriblər ki, darçın iyi reaksiya cəldliyinə və motor qabiliyyətlərinin yaxşılaşmasına müsbət təsir göstərir. Tədqiqatçıların fikrincə bu müşahidələr gələcəkdə Alsheymer xəstəliyinin inkişafının qarşısını almağa kömək edə bilər. Bundan əlavə darçının antibakterial və iltihab əleyhinə xüsusiyyətləri də var. Misal üçün, bu bitkinin iyi soyuqdəymə və buna səbəb olan baş ağrısının simptomlarını aradan qaldıra bilər.

**Lavanda**

Lavandanın narahatlığı, yuxusuzluğu və depressiyanı aradan qaldırdığını hər kəs bilir. Lakin çox az insan bu bitkinin saç uzadan xüsusiyyətlərindən xəbərdardır. Alimlər bildirirlər ki, hətta alapesiyanın bəzi növlərində belə bu bitki kömək edə bilər. Bəzi hallarda isə lavandanı ağrıkəsici, yara sağaldıcı kimi də istifadə etmək mümkündür. Misal üçün, bu bitkinin yağını yodla qarışdırıb yaraya sürtdükdə həmin nahiyənin daha tez sağalmasına kömək etmək ola.

## UEFA ötən mövsümün ən yaxşı qolunu açıqlayıb




UEFA ötən mövsüm ərzində vurulan ən yaxşı qolların müəlliflərini açıqlayıb. UEFA-nın saytında yer alan məlumata görə, ötən mövsüm "Real Madrid"in formasını geyən portuqaliyalı hücumçu Kriştiano Ronaldonun turnirin yarımfinal mərhələsi çərçivəsində ilk görüşdə hazırkı komandası "Yuventus"un qapısına "qayçı" zərbəsi ilə vurduğu top ən yaxşı qol elan edilib. Bu qol sorğuda iştirak edən 346 min 915 nəfərdən 197 min 496-sının səsini toplayıb.

Mövsümün ikinci ən yaxşı qolunun müəllifi Fransanın "Marsel" komandasının yarımmüdafiəçisi Dmitri Payet olub. UEFA Avropa Liqasının dörddəbir final mərhələsinin cavab qarşılaşmasında "Marsel"in Almaniyanın "Leypsiq" klubunu 5:2 hesabı ilə məğlub etdiyi oyunda D.Payetin vurduğu qol 35 min 558 səs toplayıb.

Üçüncü ən yaxşı qol isə Litvada keçirilən 17 yaşadək qadınlar arasında Avropa çempionatının finalında İspaniya yığmasının üzvü Eva Navarronun Almaniya millisinin qapısına vurduğu top seçilib. Bu qol 23 min 315 nəfərin səsini alıb.

UEFA-nın texniki komitəsi mövsümün ən yaxşı qolunu son 12 ay ərzində qitənin ali futbol qurumunun bayrağı altında keçirilən bütün turnirlərdə vurulan qollar arasından seçir. Komitə builki qalibi 11 namizədin arasından müəyyənləşdirib. Xatırladaq ki, 2017-ci ildə "Yuventus"un xorvatiyalı hücumçusu Mario Mandzukiçin "Real Madrid"in qapısına vurduğu top ən yaxşı qol hesab edilmişdi. 2015-ci və 2016-cı illərdə isə bu nominasiyada qalib adına müvafiq olaraq "Bavariya"nın və "Roma"nın qapısından keçirdiyi qollara görə Lionel Messi layiq görülmüşdü.

## AFFA Aleksander Çeferinin namizədliyini dəstəkləyəcək




AFFA rəhbərliyi gələn il fevralın 7-də Romada UEFA-nın 43-cü Konqresi çərçivəsində qitənin ali futbol qurumunun prezidenti vəzifəsinə keçiriləcək seçkilərdə Aleksander Çeferinin namizədliyini dəstəkləyəcək. AFFA-nın saytında yer alan məlumata görə, bununla əlaqədar UEFA-ya müvafiq rəsmi məktub göndərilib. AFFA rəhbərliyi 2016-cı il sentyabrın 14-də UEFA prezidenti vəzifəsinə keçirilən seçkilərdə də A.Çeferinin namizədliyini dəstəkləmişdi. Həmin vaxt A.Çeferinin seçkiqabağı platformasında yer alan sosial məsuliyyət, assosiasiyalararası dialoq, UEFA irsinin davam etdirilməsi, Avropa futbol təşkilatının hər zaman zirvədə saxlanılması ilə bağlı müddəalarla tanış olduqdan sonra AFFA onun namizədliyinin dəstəklənməsinə qərar vermişdi.

## Ronaldo İspaniyada futbol klubu alır



Braziliya millisinin sabiq hücumçusu Ronaldo futbol klubunun sahibi ola bilər. SİA-nın məlumatına görə, braziliyalı İspaniyanın "Valyadolid" klubunu əldə etməyə yaxındır. Rəsmi açıqlamanın 2-3 həftədən sonra veriləcəyi gözlənilir. "Valyadolid" bu mövsüm La Liqada mübarizəyə qoşulub. Ronaldo klubu 30 milyon avroya alacaq. Bu məbləğ ispan klubunun 25 milyon avro borcunu bağlayacaq. "Sambaçı" komandanın əsas təsisçisi və prezidenti olcaq. İndiki klub prezidenti Karlos Suares baş direktor vəzifəsini yerinə yetirəcək. Qeyd edək ki, Çinin və Latın Amerikasının bəzi iş adamları da La Liqanın yeni komandasını əldə etmək istəyiblər. Lakin Suares keçmiş hücumçu ilə anlaşıb.

## Ronaldonun oğlu "Yuventus"da məşqlərə başlayıb



"Yuventus"un ulduz futbolçusu Kriştiano Ronaldonun oğlu klubun akademiyasında məşqlərə başlayıb. SİA-nın məlumatına görə, Junior 9 yaşa qədər olan komanda ilə birgə hazırlıq keçir. Ronaldo bir müddət əvvəl açıqlamasında 7 yaşlı oğlunun gələcəkdə futbolçu olmaq arzusunda olduğunu demişdi.

## Subaşiç Xorvatiya millisində oynamayacaq

Xorvatiya millisinin üzvü Daniyel Subaşiç yığma karyerasını başa vurub. Bu barədə Xorvatiya Futbol Federasiyasının rəsmi saytı xəbər yayıb. Qeyd edək ki, "Monako"nun qapıçısı millidə 44 oyun keçirib. 33 yaşlı qapıçı son dünya çempionatında finala qədər irəliləyən Xorvatiya millisində inamlı çıxış ilə yadda qalıb.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500